DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 09 (326) / SENTYABR 2018-Cİ İL



Dörd ay bundan əvvəl biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etdik. Bu, tarixi hadisə idi. Çünki ilk dəfə idi ki, müsəlman aləmində demokratik respublika yaradılmışdır və Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bu respublikanı yaradan biz olmuşuq. Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Ancaq buna baxmayaraq, Azərbaycan Demokratik Respublikası bir çox işləri görə bildi. Dövlət atributları təsis edildi və bu gün bizim dövlət bayrağımız, dövlət himnimiz Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş dövlət atributlarıdır. Azərbaycan dili rəsmi dil kimi elan edilmişdir. İyunun 26-da Azərbaycan Milli Ordusu yaradılmışdır ki, bir neçə ay bundan sonra Qafqaz İslam Ordusu ilə birlikdə Azərbaycan Milli Ordusu və könüllülər Bakını işğalçılardan azad etdilər. Təhsillə bağlı çox önəmli qərarlar qəbul edilmişdir, o cümlədən Bakı Dövlət Universitetinin yaradılması haqqında qərar qəbul olunmuşdur. Gələn il biz Bakı Dövlət Universitetinin 100 illiyini qeyd edəcəyik. Bir çox qanunlar qəbul edilmişdir, daha doğrusu, 200-dən çox qanun qəbul edilmişdir. Qadınlara səsvermə hüququ verilmişdir. Yəni, qısa müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti böyük işlər gördü. Bu gün Azərbaycan xalqı, Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin və onun qurucularının fəaliyyətini yüksək qiymətləndirir. Təsadüfi deyil ki, 2018-ci il mənim Sərəncamımla "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir. Bu il biz Azərbaycanda və bir çox ölkələrdə Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı bir çox önəmli tədbirlər keçirmişik. Azərbaycanda müntəzəm olaraq tədbirlər keçirilir. Onların arasında, əlbəttə ki, 28 May günü ilə əlaqədar keçirilmiş təntənəli tədbirləri xüsusilə qeyd etmək istərdim. Ondan sonra Azərbaycan Milli Ordusunun 100 illiyinə həsr edilmiş möhtəşəm hərbi paradı qeyd etməliyəm. Bir neçə gün bundan əvvəl - sentyabrın 15-də ikinci möhtəşəm hərbi parad keçirilmişdir. Bakının işğalçılardan azad edilməsi günü təntənəli şəkildə qeyd edildi.

... Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı, süqut etdi və Azərbaycan dövlət müstəqilliyini itirdi. Bu, onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir.

... Azərbaycanda daxildə təhlükə mənbələri yoxdur. Mən bunu dəfələrlə demişəm. Biz özümüzü mümkün olan risklərdən isə öz siyasətimizlə, o cümlədən uğurlu xarici siyasətimizlə qoruyuruq. Eyni zamanda, dünyada təhlükəsizliyə töhfəmiz də getdikcə artır. Təkcə təhlükəsizliyə yox, biz təhlükəsizliyi böyük dərəcədə şərtləndirən insanlararası, dinlərarası dialoqa da böyük töhfə veririk. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. İlk növbədə, bu siyasət bizə lazımdır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri çox rahat, bir ailə kimi yaşayırlar. Eyni zamanda, bu siyasət dünyaya lazımdır. Çünki bu gün dinlərarası məsələlər getdikcə narahatlıq doğurur. Toqquşmalar, anlaşılmazlıq, ayrı-seçkilik, ksenofobiya - bütün bunları biz dünyada görürük. Biz öz siyasətimizi ortaya qoyuruq, öz nümunəmizi göstəririk. Bakıda keçirilən bir çox beynəlxalq tədbirlər ən böyük beynəlxalq təşkilatlar, o cümlədən BMT, UNESCO və digər təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev,**
Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasdakı nitqindən
Bakı, 21 sentyabr 2018-ci il

**AZƏRBAYCAN DİNLƏRARASI, MƏDƏNİYYƏTLƏRARASI DİALOQA MÜHÜM TÖHFƏLƏR VERİR**



Səh. 2

**BAKIDA DÜNYA YƏHUDİLƏRİNİN YENİ İL BAYRAMI-"ROŞ-HA-ŞANA" MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLİB**



Səh. 3

**Təzəpir məscidində qanvermə aksiyası keçirilib**



Səh. 5

**Azərbaycan İlahiyyat İnstitutunun açılışı olub**



Səh. 6

# Azərbaycanda dini icmaların maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycanda dini icmaların maddi-texniki təchizatının yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 400,0 (dörd yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 11 sentyabr 2018-ci il.

# Azərbaycanın yəhudi icmasına

**Hörmətli həmvətənlər!**

Yəhudi xalqının yeni il bayramı – Roş-Ha-Şana münasibətilə sizi ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Biz xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın və multikultural dəyərlərin mövcud olduğu müasir Azərbaycan cəmiyyətində etnik-mədəni müxtəlifliyi milli dövlətçiliyimizin əvəzsiz nailiyyəti kimi qiymətləndiririk. Ölkəmizin bütün xalqları, o cümlədən yəhudi icması Azərbaycanda həmişə əmin-amanlıq şəraitində yaşamış, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, adət-ənənələrini qoruyub saxlamışdır.

Müstəqil Azərbaycan dövləti bu gün də öz mütərəqqi tarixi ənənələrinə sadiqdir. Müasir demokratik prinsiplərə uyğun olaraq ölkədə insan haqlarının təminatı, milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Yüz illərdir Azərbaycanda məskunlaşıb yaşayan yəhudi icması bu gün cəmiyyətimizin ayrılmaz hissəsinə və bərabərhüquqlu üzvünə çevrilmişdir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, yəhudi əsilli vətəndaşlarımız hazırda böyük inkişaf və tərəqqi mərhələsini yaşayan ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edir, demokratik dövlət quruculuğu prosesinə öz layiqli töhfələrini verirlər.

# AZƏRBAYCAN DİNLƏRARASI, MƏDƏNİYYƏTLƏRARASI DİALOQA MÜHÜM TÖHFƏLƏR VERİR



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliyaya rəsmi səfəri çərçivəsində sentyabrın 26-da Roma Papası Fransisk ilə görüşüb.

Görüşdə Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə olundu, əməkdaşlığımızın mədəni irsin qorunması sahəsində daha da genişləndiyi vurğulanıb. Azərbaycanın dinlərarası, mədəniyyətlərarası dialoqa mühüm töhfələr verdiyi qeyd edilib.

Söhbət zamanı Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti, Fondun xristian abidələrinin qorunması, bərpası istiqamətində gördüyü işlər yüksək qiymətləndirilib.

Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Roma Papasına çatdırıb.

Papa Fransisk Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını dövlətimizin başçısına çatdırmağı xahiş edib.

* * *

Həmin gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb.

Görüşdə Azərbaycanın Şərq ilə Qərb arasında özünəməxsus mədəniyyət körpüsü rolu oynadığı bildirilib, ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlıq ənənələri, multikultural mühit yüksək qiymətləndirilib.

Söhbət zamanı Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqun möhkəmlənməsinə verdiyi töhfələr, bununla bağlı ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, xüsusilə də Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlər, reallaşdırdığı mühüm layihələr qeyd edilib.



* * *

Romada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Sebastian katakombalarının sentyabrın 26-da açılışı olub.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılış mərasimində iştirak edib.

Kardinal Can-Franko Ravazi Birinci vitse-prezident Mehriban Əliyevanı qarşılayıb.

Sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Sebastian katakombalarının açılışı olub.

Birinci vitse-prezident Mehriban Əliyeva və Kardinal Can-Franko Ravazi rəmzi açılışı bildirən lenti kəsiblər.

Burada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərinə 2016-cı ildə başlanılıb. Görülən işlərə görə Azərbaycanın Birinci vitse-prezidentinə minnətdarlıq ifadə olunub. Bildirilib ki, bərpa işləri mükəmməl həyata keçirilib. Ümumilikdə, katakombalarda 8 minə yaxın sərdabə yerləşir. Katakombaların zəngin tarixi var. Onlar bütün xristian dünyası üçün mühüm əhəmiyyət daşıyır. Katakombalar təbii və ya süni yeraltı məntəqələrdir. Onlar çox dar dəhlizlərdən ibarət olur. Əvvəllər Romada müqəddəs Sebastian kilsəsinin altında yerləşən dəfn qalereyalarına katakombalar deyilirdi. Bu katakombalar 1578-ci ildə aşkarlanıb. Buradakı bəzi abidələrin yaşı III əsrə gedib çıxır.



Bundan əvvəl Heydər Əliyev Fondunun təşəbbüsü ilə Müqəddəs Marçellinio və Pietro katakombaları da bərpa olunub. Dünya mədəniyyəti, xüsusilə də xristianlar üçün böyük mənəvi dəyəri olan katakombaların müsəlman ölkəsi Azərbaycanın Heydər Əliyev Fondu tərəfindən bərpa edilməsi ölkəmizin dinlərarası və mədəniyyətlərarası dialoqa verdiyi növbəti töhfədir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dünya əhəmiyyətli tarixi, dini, mədəni abidələri bərpa etməsi həm də ümumilikdə, ölkəmizin təbliği, dünyada layiqincə təmsil olunması baxımından mühüm əhəmiyyətə malikdir.

# DÖVLƏT KOMİTƏSİNDƏ MÜŞAVİRƏ KEÇİRİLİB

Sentyabrın 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun iştirakı ilə ölkədəki mövcud dini duruma həsr olunmuş müşavirə keçirilib. Tədbirdə DQİDK-nın rəhbərliyi, eləcə də Mərkəzi Aparatının və bölgə şöbələrinin müdirləri iştirak ediblər.



Müşavirəni açan Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdə mövcud dini durum, dini maarifləndirmə sahəsində həyata keçirilən tədbirlər və müzakirə olunacaq məsələlər barədə ətraflı məlumat verərək qeyd edib ki, Dövlət Komitəsinin bütün respublika üzrə dini maarifləndirmə məqsədilə keçirdiyi tədbirlər öz bəhrəsini verir və bu fəaliyyət ardıcıl olaraq davam etdirilməlidir. Respublikamızın bütün şəhər və rayonlarında davamlı olaraq milli-mənəvi, dini dəyərlərimizin, həmçinin Azərbaycanın tolerantlıq və multikultural ənənələrinin təbliği və təşviqi üçün çox böyük işlər görülür.

Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov Məhərrəm ayının başlanması münasibətilə DQİDK-nın qəbul etdiyi Tədbirlər Planı və nəzərdə tutulan işlər barədə ətraflı məlumat verib. Bildirib ki, qəbul edilən plana görə Dövlət Komitəsi öz fəaliyyətini bir neçə istiqamətdə quracaq. Buraya maarifçilik, izahat işlərinin aparılması, monitorinqlər və s. daxildir. Eyni zamanda Dövlət Komitəsi paytaxtda və bölgələrdə QMİ-nin təşəbbüsü ilə keçirilən qanvermə aksiyasına dəstək verəcəkdir.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov görülmüş işlər, Məhərrəm ayında planlaşdırılan tədbirlər və qarşıda duran vəzifələrdən danışıb, həmçinin müvafiq tövsiyələrini verib.

Müşavirədə bölgə şöbə müdirləri dini durum, eləcə də görüləcək işlərlə bağlı məlumat veriblər. Dövlət Komitəsinin fəaliyyəti ilə bağlı digər məsələlər, o cümlədən dövlət-din münasibətləri, dövlətin dinə qayğısı, Azərbaycanın zəngin tolerantlıq ənənələri, milli-mənəvi dəyərlərimizin qorunması və digər aktual məsələlərlə bağlı müzakirələr aparılıb. Qeyd olunub ki, Məhərrəm ayının başlanması ilə əlaqədar olaraq Aşura günü təziyə mərasimlərində Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ müharibəsi zamanı şəhid olan soydaşlarımız da anılmalı, bütün mərasim və tədbirlər qanun çərçivəsində təşkil edilməlidir. Müzakirə olunan məsələlərlə bağlı bölgə şöbə müdirlərinə müvafiq tapşırıq və tövsiyələr verilib.

# BAKIDA DÜNYA YƏHUDİLƏRİNİN YENİ İL BAYRAMI- “ROŞ-HA-ŞANA” MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLİB



Bakıdakı Avropa yəhudiləri icmasının nümayəndələrinin və qonaqların iştirakı ilə dünya yəhudilərinin Yeni il bayramı - “Roş-Ha-Şana” münasibətilə tədbir keçirilib.



Bayram tədbirində Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin müavinləri Səyyad Salahlı və Səyavuş Heydərov iştirak ediblər.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Prezident İlham Əliyevin təbrik məktubunu oxuyub. Təbrikdə bildirilir ki, biz xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın və multikultural dəyərlərin mövcud olduğu müasir Azərbaycan cəmiyyətində etnik-mədəni müxtəlifliyi milli dövlətçiliyimizin əvəzsiz nailiyyəti kimi qiymətləndiririk. Ölkəmizin bütün xalqları, o cümlədən yəhudi icması Azərbaycanda həmişə əmin-amanlıq şəraitində yaşamış, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, adət-ənənələrini qoruyub saxlamışdır.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında ölkəmizdə mövcud olan multikulturalizm və tolerentlıq mühitindən bəhs edərək bildirib ki, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq insan hüquq və azadlıqlarının təminatı, o cümlədən ölkədə sabitlik, əmin-amanlıq dövlətimizin siyasətinin prioritet istiqamətlərindəndir.



Daha sonra çıxış edən Avropa Yəhudiləri icmasının sədri, xalq artisti Aleksandr Şarovski və başqaları dövlətin ölkəmizdəki bütün dinlərin və millətlərin nümayəndələrinə hər zaman diqqət və qayğı göstərdiyini söyləyiblər. Vurğulayıblar ki, yəhudi əsilli vətəndaşlarımız bu gün müstəqil Azərbaycanın ictimai-siyasi, elmi-mədəni həyatında, demokratik dövlət quruculuğu prosesində yaxından iştirak edirlər.

Tədbirdə Bakıdakı Avropa yəhudilərinin ravvini tərəfindən dini ayin icra edilib və təqvim üzrə başlayan növbəti yeni ildə bütün xalq və millətlərə sülh və əmin-amanlıq arzulanıb.

# ATƏT-in insan ölçüsü üzrə iclasında “Bakı prosesi” haqqında danışılıb

Bu ilin sentyabrın 10-da Polşanın paytaxtı Varşava şəhərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun İnsan Ölçüsü üzrə öhdəliklərin yerinə yetirilməsinə həsr olunmuş yekun iclası öz işinə başlayıb. Hər il payızda keçirilən bu mötəbər tədbirdə ATƏT-ə üzv olan ölkələr insan ölçüsünə dair konsensus yolu ilə qəbul etdikləri öhdəliklərin yerinə yetirilməsi ilə bağlı hesabat verirlər. Sentyabrın 21-dək davam edəcək tədbirdə ATƏT-ə üzv olan 57 ölkənin nümayəndələri ilə yanaşı, müxtəlif beynəlxalq və qeyri-hökumət təşkilatlarının təmsilçiləri də iştirak edirlər.

Sentyabrın 13-də sözügedən tədbirin “Antisemitizmlə mübarizə; dini və ya etiqadi zəmində, o cümlədən xristianlara, müsəlmanlara və digər dinlərin nümayəndələrinə qarşı dözümsüzlük və diskriminasiya ilə mübarizə” mövzusuna həsr olunmuş 6-cı işçi sessiyası keçirilib. Sessiyada Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxış edərək tədbir iştirakçılarına “Bakı prosesi” haqqında geniş məlumat verib. O, “Bakı prosesi”nin tarixi, məqsədləri və iştirakçıları barədə danışıb, bu il Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə həmin prosesin 10 illiyinin ölkəmizdə qeyd edildiyini iclas iştirakçılarının diqqətinə çatdırıb.

E.Nəcəfov bildirib ki, bir hərəkat kimi mədəniyyətlərarası dialoqun inkişafına yönələn “Bakı prosesi”nin əsası Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə qoyulub. Regional hərəkat olaraq yaradılan “Bakı prosesi” 2010-cu ildən qlobal təşəbbüsə çevrilib. Bu hərəkat çərçivəsində Bakıda dörd Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu (2011-ci, 2013-cü, 2015-ci və 2017-ci illərdə), beş Bakı Beynəlxalq Humanitar Forumu (2011-ci, 2012-ci, 2013-cü, 2014-cü və 2016-cı illərdə), Dünya Dini Liderlərinin Sammiti (2010-cu ildə), eləcə də Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu (2016-cı il) keçirilib. Azərbaycan Respublikası ilə yanaşı, “Bakı prosesi”nin aktorları arasında UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, ISESCO, BMT-nin Dünya Turizm Təşkilatı kimi nüfuzlu təşkilatlar yer alır.




E.Nəcəfov çıxışının sonunda BMT-nin baş katibi Antoniu Quterreşin “Bakı prosesi”nə yüksək qiymət verdiyini, onun bu hərəkatın mədəniyyətlərarası dialoqun inkişafında mühüm rol oynadığını qeyd etdiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

# AZƏRBAYCANDA MÖVCUD ETNO-SİYASİ VƏ DİNİ DURUM BÜTÜN DÜNYAYA NÜMUNƏDİR



Sentyabrın 27-də Yevlax şəhərində Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin təşkilatçılığı ilə “Müasir dövrdə Azərbaycan Respublikasında etno-siyasi və dini durum” mövzusunda zona müşavirəsi keçirilib.

Başir Səfəroğlu adına Xalq Teatrında keçirilən zona müşavirəsində Yevlax, Bərdə, Ağcabədi, Tərtər, Füzuli, Ağdam, Laçın, Xocavənd, Beyləqan şəhər və rayon icra hakimiyyəti başçılarının müavinləri – dini işlər üzrə komissiya sədrləri, dini qurumlarla işin təşkilatçıları, hüquq-mühafizə orqanlarının, Mədəniyyət, Təhsil, Gənclər və İdman nazirliklərinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yerli qurumlarının rəhbərləri, bələdiyyə sədrləri, ziyalılar və din xadimləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Yevlax şəhərinin mərkəzi meydanındakı abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov çıxış edərək, tədbirin əhəmiyyətindən danışıb, rayondakı dini durum haqqında məlumat verib.

Müşavirədə məruzə ilə çıxış edən Azərbaycan Respublikası Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov bildirib ki, Azərbaycan Respublikası multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir. Multikulturalizm etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə yönələn bir siyasət kimi assimilyasiya siyasətindən fərqli olaraq, milli azlıqların etnik-mədəni dəyərlərinin ləğv edilməsinin qarşısını almaqla, bu dəyərləri qorumağa çalışır. Həmçinin izolyasiya siyasətindən fərqli olaraq, milli azlıqların etnik-mədəni dəyərləri ilə titul etnosun etnik-mədəni dəyərlərinin bir-birinə qarşılıqlı təsir etmələri üçün lazımi şərait yaradır. Eləcə də milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiyası üçün əlverişli imkan təklif edir.

Qeyd edilib ki, ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri bütün dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviq olunmasıdır. Bu istiqamətdə ölkəmiz böyük uğurlara imza atıb. Belə uğurlardan biri kimi son dövrdə siyasi leksikona daxil olmuş “Bakı prosesi”ni qeyd etmək olar. Bu il on illiyini qeyd etdiyimiz və qlobal hərəkata çevrilmiş “Bakı prosesi” müxtəlif mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsini nəzərdə tutan bir təşəbbüsdür. “Bakı prosesi” çərçivəsində cari ilin oktyabr ayının 25-26-da VI Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi planlaşdırılır.

Dinin ideoloji sahədə həssas və incə mahiyyətə sahib olduğunu deyən natiq ondan siyasi, qrup, şəxsi maraqlar naminə istifadə edən, yaxud din pərdəsi altında müxtəlif destruktiv fəaliyyətlərə yönələn və bunun nəticəsində digər vətəndaşların hüquqlarını pozan, bir sözlə, insanların saf duyğularından öz məkrli məqsədlərini həyata keçirmək istəyənlərin də az olmadığını qeyd edib.

“Azərbaycan Respublikasında dini etiqad azadlığı möhkəm hüquqi-normativ əsaslara malikdir. Eyni zamanda, dövlətimiz dini etiqad azadlığının təmin olunması sahəsində böyük işlər görür. Lakin radikal ekstremist qruplaşmalar öz çirkin əməlləri ilə buna kölgə salmağa çalışır, həmçinin ölkədəki ictimai-siyasi sabitliyi pozmağa cəhdlər edirlər. Belə cəhdlərin qarşısı həmişə qətiyyətlə alınıb və gələcəkdə də alınacaq”, – deyə E.Nəcəfov vurğulayıb.



Müşavirədə digər çıxış edənlər dövlət-din münasibətləri istiqamətində görülən işlərdən danışıb, hazırda Azərbaycanda mövcud olan etno-siyasi və dini durumun bütün dünyaya nümunə olduğunu bildiriblər.

# "DİNİ MƏRASİMLƏR: ƏNƏNƏVİLİK VƏ MÜASİRLİK"



Hicri təqvimi üzrə Məhərrəm ayının başlanması ilə əlaqədar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sentyabr ayı ərzində şəhər və rayon icra hakimiyyətləri ilə birgə "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirələr təşkil etmişdir. Bakının Sabunçu, Binəqədi, Yasamal, Səbail, Suraxanı və Pirallahı rayonlarında, Zirə qəsəbəsində, Lənkəran



şəhəri və Masallı rayonunda baş tutan tədbirlərdə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, şəhər və rayon icra hakimiyyətlərinin başçıları, millət vəkilləri, rayonlarda fəaliyyət göstərən dini icmaların sədrləri, imamlar, kənd və qəsəbələrin icra nümayəndələri, bələdiyyə sədrləri, Rayon Ağsaqqallar Şurasının üzvləri iştirak ediblər.

Tədbirlərdə çıxış edən natiqlər maarifləndirmə tədbirlərinin əhəmiyyətindən söhbət açaraq qeyd ediblər ki, Azərbaycanda həmişə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olmuşdur. Bu gün də məscidlərdə müxtəlif təriqətlərin daşıyıcıları dini ayinlərini bir yerdə icra edir, bir-birinə hörmətlə yanaşırlar. Vurğulanıb ki, İslam dünyasının bir parçası olan Azərbaycanda milli-mənəvi irsimizin qorunması, təbliği, tədqiqi və onun gələcək nəsillərə ötürülməsi istiqamətində ardıcıl tədbirlər görülür, İslam dini milli-mənəvi dəyərlərimizdə, adət-ənənələrimizdə, həyat tərzimizdə dərin izlər buraxmışdır. Buna görə də əsrlərin süzgəcindən keçərək müasir dövrümüzədək gəlib çatmış milli-mənəvi, dini adət-ənənələrimizi yaşatmalı və onu düzgün şəkildə insanlara çatdırmalıyıq. Din sahəsində ideoloji cəhətdən boşluq yaranmasına imkan verməməliyik



Bildirilib ki, ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədə qurulub və dindarlar hər zaman dövlətin maddi-mənəvi dəstəyini hiss edirlər. Sözsüz ki, milli dəyərlərimizin qorunması və inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır və bu gün onun yaratdığı müasir Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. Ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət daim dini sahəyə, inanclı insanlara böyük diqqət və qayğı göstərir. Prezident İlham Əliyev mütəmadi olaraq din xadimləri ilə görüşür, dövlət tərəfindən dini konfessiyalara maddi yardımlar edilir, dini ibadət yerləri təmir-bərpa olunub inanclı insanların istifadəsinə verilir. Ölkəmizdə bütün vətəndaşların dini etiqad azadlığı qanunvericiliklə tam təmin olunur.

Seminar-müşavirələrdə Məhərrəm ayı və Aşura tədbirləri haqqında fikir mübadiləsi aparılıb. Bildirilib ki, mərasimlər məscidlərdə və Qafqaz Müsəlmanları İdarəsinin fətvasına uyğun, qanun çərçivəsində, fətvada irəli sürülən tövsiyələrə riayət olunmaqla keçirilməlidir. Müzakirələr zamanı dini mərasimlərin, o cümlədən Aşura mərasiminin icrası zamanı ənənəvilik və müasirlik prinsiplərinə riayət olunması ilə bağlı müxtəlif təkliflər səsləndirilib.

Seminar-müşavirələrin sonunda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.



# Təzəpir məscidində qanvermə aksiyası keçirilib





Sentyabrın 20-də Aşura günü ilə əlaqədar Təzəpir məscidində keçirilən qanvermə aksiyasına Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin komitə sədri Eldar İbrahimov, deputatlar Hüseynbala Mirələmov, Cavanşir Paşazadə, Bakı və Azərbaycan yeparxiyasının arxiyepiskopu Aleksandr, Dağ Yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev də qoşulublar.

Qanvermə aksiyasından sonra QMİ sədri şeyxülislam Allahşükür Paşazadə jurnalistlərə müsahibəsində deyib: "Aşura günü İmam Hüseynin (ə) şəhid olduğu və ədalətin bərpa edildiyi gündür. Kərbəla çölündə İmam Hüseyn (ə) şəhid olarkən "mənim ölümümdə bir həyat var" deyib. Biz artıq neçə illərdir ki, şəhidlərimizi yad edir, eyni zamanda qan verməklə həyat veririk. Biz Kərbəla şəhidləri ilə birlikdə həm də torpaqlarımızın azadlığı uğrunda şəhid olan övladlarımızı yad edirik. Bu gün qan verməklə həm də kimlərəsə can veririk. Aşura günündə baş yarmaq, zəncir vurmaq, qan çıxarmaq olmaz. Buna heç İmam Hüseyn (ə) özü də razı olmazdı".

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, son illər yaranmış ənənəyə görə ölkə vətəndaşları Aşura günü qanvermə aksiyasında iştirak edirlər. Bu il də həmin ənənəyə uğun olaraq çoxsaylı vətəndaşlar könüllü olaraq həmin aksiyada iştirak ediblər. Aksiyanın çox böyük mənəvi, siyasi və psixoloji əhəmiyyəti var. Artıq bu ənənədən bir çox qonşu ölkələrdə, o cümlədən İran və Türkiyədə də nümunə kimi istifadə edilir. Bu, bütün dünya, eləcə də İslam dünyası üçün çox yaxşı bir nümunədir.

Aksiyanın digər iştirakçıları qanvermənin əhəmiyyətindən danışıb, bunu xüsusilə də sağlamlıq problemləri olanlar üçün faydalı bir təşəbbüs kimi qiymətləndiriblər.

# Azərbaycan İlahiyyat İnstitutunun açılışı olub




Sentyabrın 17-də Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) açılış mərasimi keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, Türkiyə Diyanət Vəqfi 29 Mayıs Universiteti İdarə Heyətinin sədri Tayyar Altıkulac, Azərbaycanda fəaliyyət göstərən dini icmaların rəhbərləri və digər məsul şəxslər iştirak ediblər.



Aİİ-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğu dövlət-din siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da bu sahəyə xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb. Aİİ-nin yaradılmasının dövlətimizin başçısının dinə, mənəvi dəyərlərə qayğısının ən böyük göstəricilərindən biri olduğunu söyləyən rektor bu müdrik qərara və din sahəsinə göstərdiyi yüksək diqqətə görə ilahiyyatçılar adından Prezident İlham Əliyevə minnətdarlığını bildirib. C.Məmmədov deyib: "Sovet dövrünün qadağa və məhdudiyyətləri ilə üzləşən, ancaq ruhdan düşməyən, gələcəyə ümidlə baxan ruhanilərimizin ən böyük arzularından biri Azərbaycanda ali dini təhsil müəssisəsinin yaradılması olub. Belə ki, Aİİ-nin yaradılması Azərbaycanın dövlətçilik tarixində dini sahədə qəbul edilmiş ən ciddi qərarlardan biridir. Biz bu məsuliyyətin yükünü anlayır, dövlətimizin göstərdiyi etimadı, xalqımızın bizə bəslədiyi inam və ümidi doğrultmaq üçün səylə çalışırıq. 2018-2019-cu tədris ilində dövlət sifarişi əsasında qəbul üzrə Aİİ-nin islamşünaslıq ixtisasına 35, dinşünaslığa isə 25 plan yeri təsdiq edilib. Bu ayrılmış plan yerləri 100 faiz dolub. İnstitutun dinşünaslıq və islamşünaslıq ixtisasları üzrə təhsil standartları Təhsil Nazirliyinə təqdim edilib və nazirliyin müvafiq şöbəsindən müsbət rəy alınıb. Hazırda institutda bir fakültə, üç kafedra mövcuddur. İnstitutda tədris Azərbaycan dilində həyata keçirilir. Gələcəkdə rus, ingilis və ərəb dilli bölmələrin açılması və dünyanın müxtəlif ölkələrindən tələbələrin institutda təhsilə cəlb olunması nəzərdə tutulur".



Rektor diqqətə çatdırıb ki, DQİDK tərəfindən Aİİ-nin bir tələbəsi üçün Heydər Əliyev adına təqaüd təsis edilib. Qafqaz Müsəlmanları İdarəsi (QMİ) də tələbələrdən biri üçün aylıq təqaüd ayırıb.

Aİİ-nin fəaliyyətə başlamasını ölkəmizin müasir tarixində mühüm hadisə kimi dəyərləndirən Etibar Nəcəfov bildirib ki, institutun yaradılması böyük siyasi və mədəni əhəmiyyətə malikdir. Aİİ əsası Ulu Öndər tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət-din münasibətlərinin xüsusi modelinin təkmilləşdirilməsi istiqamətində fəaliyyət göstərəcək. Ölkəmizdə dinlərarası münasibətləri daha da dərinləşdirəcək Aİİ Azərbaycançılıq ideyasına sadiq qalaraq dövlət-din münasibətlərinin inkişafına nail olacaq. İnstitut, həmçinin ölkəmizə daxil olan zərərli ideyaların qarşısının alınmasında səylə çalışacaq, terrorizmə, ekstremizmə qarşı mübarizədə mühüm rol oynayacaq. O vurğulayıb ki, gələcəkdə Aİİ-nin nüfuzlu xarici universitetlər ilə beynəlxalq layihələr çərçivəsində əməkdaşlığı da nəzərdə tutulub.

Tədbirdə çıxış edən Mübariz Qurbanlı dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas istiqamətləri, multikultural dəyərlərin qorunması, tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsindən danışıb. Vurğulanıb ki, din dövlətdən ayrı olsa da, dövlət-din münasibətləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyalarla və ölkəmizin mövcud qanunvericiliyi ilə tənzimlənir.

M.Qurbanlı diqqətə çatdırıb ki, Aİİ Azərbaycanda İslam dini ilə yanaşı, digər dinlər üzrə də kadr hazırlığına böyük ehtiyac duyulduğu üçün təsis edilib. O deyib: "Aİİ ölkəmizdə yeganə ali təhsil ocağıdır ki, burada ödənişsiz təhsil sistemi tətbiq olunur. Din sahəsində kadr hazırlığının geniş səpkidə həyata keçiriləcəyi bu ali təhsil ocağında oxuyan tələbələrin hamısına təqaüd verilməsi və digər güzəştlərin tətbiq olunması da nəzərdə tutulub. Hesab edirəm ki, Aİİ-nin yetişdirəcəyi kadrlar milli-mənəvi dəyərlərimizin qorunmasında öz layiqli töhfələrini verəcəklər".

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov Aİİ-nin fəaliyyətə başlamasının zərurətdən irəli gəldiyini bildirib və qeyd edib ki, bu ali təhsil ocağı dinin Azərbaycanda düzgün formada təbliğinə xidmət göstərəcək.

Sonra T.Altıkulac, QMİ-nin sədr müavini Hacı Fuad Nurullah, Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Fərzəli Qədirov, Bakı Dövlət Universiteti (BDU) rektorunun müşaviri, professor İsmayıl Əliyev, BDU-nun ərəb filologiyası kafedrasının müdiri, akademik Vasim Məmmədəliyev, Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Avropa yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski və Alban-Udi xristian dini icmasının sədri Robert Mobili çıxış edərək Aİİ-nin yaranması münasibətilə xalqımızı və institut heyətini təbrik ediblər.

Sonda tədbirdə iştirak edən dini icmaların rəhbərlərinin adından Prezident İlham Əliyevə müraciət ünvanlanıb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ MİNGƏÇEVİRDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, sentyabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Mingəçevirdə Ağdaş, Bərdə rayonlarından, eləcə də Yevlax və Mingəçevir şəhərlərindən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Mingəçevir şəhər İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən, I müavin İlham İsmayılov Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyublar.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda 20-dək vətəndaşın müraciətinə baxılıb. Vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar bu icmalara vəsaitlərin ayrılması, məscidlərin dini ədəbiyyatla təmin olunması və digər məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşlar Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən diqqətlə dinlənilib və bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlər haqqında vətəndaşlara aidiyyəti qurumlara müraciət etmələri tövsiyə olunub. Həmçinin dini maarifləndirmə məqsədilə dini icmalara maliyyə vəsaitinin ayrılması ilə bağlı müraciət edən vətəndaşlara müvafiq izahat verilib.

Vətəndaşlar yaradılan şəraitdən razı qaldıqlarını bildirib, bölgələrdə bu cür qəbulların təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# “AZƏRBAYCANIN DÖVLƏT-DİN MODELİ: ƏSAS İSTİQAMƏTLƏR”



Sentyabrın 25-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Mingəçevir Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə “Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər” mövzusunda regional konfrans keçirilib.

Dövlət Komitəsi və şəhər icra hakimiyyətinin rəhbər şəxsləri, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəsi, yerli hüquq mühafizə orqanlarının rəhbərləri, YAP Mingəçevir şəhər təşkilatının aktivləri, dini icma sədrləri, din xadimləri, həmçinin ictimaiyyət fəallarının iştirak etdiyi tədbiri giriş sözü ilə açan Mingəçevir ŞİH başçısının səlahiyyətlərini icra edən, I müavin İlham İsmayılov mövzunun aktuallığından danışaraq bildirib ki, ölkəmizdə dövlət quruculuğu prosesləri, dövlət-din münasibətlərinin tənzimlənməsi, cəmiyyətdə ictimai-siyasi sabitliyin bərqərar olunması, iqtisadiyyatın inkişafının dönməz xarakter alması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin diqqət yetirdiyi sahələrdən biri də xalqımızın milli-mənəvi dəyərlərə qayıdışının sürətlənməsi, dini abidələrə qayğı, dini bayramların dövlət səviyyəsində qeyd olunması istiqamətində görülən mühüm işlər olmuşdur. Bu siyasi kurs bu gün də dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İ.İsmayılov qeyd edib ki, ölkəmizdə sosial-iqtisadi inkişaf yüksək dinamika ilə davam edir. Azərbaycan regionun iqtisadi cəhətdən inkişaf etmiş lider dövlətinə çevrilməklə yanaşı, özünün dövlət-din münasibətləri modeli, tolerant və multikultural mühiti ilə də dünyanın bir çox dövlətlərinə nümunədir. Müxtəlif dini konfessiyaların nümayəndələri ölkəmizdə sərbəst şəkildə öz dini ayinlərini icra edirlər. Dövlət dini ibadət yerlərinə daim diqqət və qayğı göstərir.

Daha sonra çıxış edən DQİDK sədri Mübariz Qurbanlı bildirib ki, müstəqilliyimizin bərpasından sonra dövlət-din münasibətləri, xalqımızın milli-mənəvi dəyərlərinin öyrənilməsi və təbliği yeni keyfiyyət mərhələsinə qaldırılıb. Cənab Prezidentin rəhbərliyi ilə böyük tarixə malik məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi milli-mənəvi dəyərlərimizə olan böyük xidmətdir. Nümunəvi siyasətin bu gün yeni formada özünü göstərdiyini deyən Dövlət Komitəsinin sədri Prezident İlham Əliyevin dinə qayğısından danışaraq vurğulayıb ki, Mənəvi Dəyərlərin Təbliği Fondunun və Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bu diqqət və qayğının parlaq nümunəsidir.

Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti olduqca təqdirəlayiqdir. Uğurla həyata keçirilən “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində ölkədəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparılır. Bütün bunlar ölkəmizdə dinə dövlət qayğısının bariz nümunəsi, ümumiyyətlə, dövlət-din münasibətlərinin ən yüksək məcrada davam etməsinin təzahürüdür.




Ölkəmizdə din sahəsində fəaliyyətin əsasən maarifləndirmə istiqamətində olduğunu qeyd edən M.Qurbanlı din adı altında müxtəlif zərərli qrupların fəaliyyətinin qarşısının alınmasında ideoloji müstəvidə görülən işlərin mühüm rol oynadığını vurğulayıb. DQİDK sədri dinin əsas fundamental dəyərlərindən kənara çıxaraq, zərərli təşviqatlar aparmaqla, xurafat yaymaqla insanları din adı altında başqa məqsədlərə yönəldən, onları silahlı münaqişələrə cəlb edən, digər mədəniyyətlərə və dinlərə qarşı qoyan radikal qruplaşmaların qarşısının alınmasının vacibliyinə diqqət çəkib. Bildirib ki, belə məqamlarda milli-mənəvi və islami dəyərlərimizin qorunub-saxlanılmasına və təşviqinə böyük ehtiyac vardır.

QMİ nümayəndəsi, Şirvan bölgəsi üzrə qazısı Əli Məmmədov çıxışında dinə dövlət qayğısından, dini ibadətgahların inşa və təmir edilərək yenidən xalqın ixtiyarına verildiyindən bəhs edib. Natiq din xadimlərinin fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını, dövlət tərəfindən mütəmadi olaraq dini maarifləndirmə işinin təşkilinin daha da yaxşılaşdırılması məqsədilə maliyyə vəsaitinin ayrıldığını deyib.

Tədbirdə dini radikalizmə qarşı mübarizə, cəmiyyətin, xüsusən gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasının qarşısının alınmasında dini maarifləndirmənin rolu və önəmi kimi məsələlərə toxunulub, müzakirələr aparılıb.

***Regional konfrans sentyabrın 26-da işini panel formatında davam etdirib.***

Konfransda DQİDK sədrinin müavini Gündüz İsmayılov, Mingəçevir ŞİH başçısının səlahiyyətlərini icra edən, birinci müavin İlham İsmayılov, Mingəçevir Şəhər Təhsil Şöbəsinin müdiri Sahib Məmmədov, orta məktəb direktorları, onların təlim-tərbiyə işləri üzrə müavinləri, “Həyat bilgisi” fənnini tədris edən müəllimlər və məktəb psixoloqları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan İlham İsmayılov bölgədəki dini durum haqqında məlumat verib.

DQİDK sədrinin müavini Gündüz İsmayılov çıxışında dövlət-din münasibətləri və dini radikalizmə qarşı mübarizə istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, dinə hüquq, vicdan azadlığı, milli-mənəvi dəyər prizması ilə yanaşı, həm də dövlətin və cəmiyyətin dini-ideoloji, ictimai təhlükəsizliyi baxımından yanaşmaq lazımdır. Sədr müavini vurğulayıb ki, cəmiyyətin dini-ideoloji təhlükəsizliyinin pozulması milli və ictimai təhlükəsizliyə təhdiddir. Buna görə də dini kimliyin milli kimliyə qarşı qoyulmasına, dindar kontingent arasında dünyəviliyin və ənənəvi İslamın zəiflədilməsi cəhdlərinə və xurafatın güclənməsinə qarşı mübarizə aparmaq zəruridir.

Dini maarifləndirmə tədbirlərinin əhəmiyyətinə toxunan sədr müavini dinin ənənəvi İslam kontekstindən təbliğinin cəmiyyətin dini və dünyəvi cəhətdən iki hissəyə ayrılmasının qarşısının alınması baxımından zəruri olduğunu qeyd edib.

Daha sonra çıxış edən Mingəçevir Şəhər Təhsil Şöbəsinin müdiri Sahib Məmmədov dini radikalizm və onun əsas təbliğat metodları haqqında danışıb. O, qeyd edib ki, radikal dini qrupların təsirinə düşməmək üçün dini biliklərlə yanaşı, dünyəvi elmlərin də mənimsənilməsi vacibdir və bu işdə şagirdlərlə mütəmadi təmasda olan pedaqoqların üzərinə mühüm vəzifələr düşür.

Konfransın sonunda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# *Mübariz Qurbanlı:* Yaxın gələcəkdə məktəblərdə müxtəlif dinlərlə bağlı dərs keçiriləcək

Orta məktəbi bitirən şagirdlər yalnız İslam dini haqqında deyil, eləcə də digər dinlər barədə də məlumatlı olmalıdırlar. Yaxın gələcəkdə “Həyat bilgisi” fənnində müxtəlif dinlər haqqında məlumatların daha geniş şəkildə şagirdlərə çatdırılması istiqamətində işlər gedir.

Bunu jurnalistlərə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. O, bildirib ki, kitablarda bu barədə məlumatlar var, sadəcə, bu, daha da genişləndiriləcək. Bəzi insanlar elə bilirlər ki, orta məktəblərdə şagirdlərə mədrəsə səviyyəsində və ya din xadimləri kimi din öyrədiləcək. Ancaq bu cür olmayacaq.

Sədr, həmçinin əlavə edib ki, Bakıda və digər bölgələrdə yeni İslam kolleclərinin yaradılması istiqamətində işlər gedir. Bununla bağlı Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə danışıqlar aparılır.

Komitə sədri bildirib ki, Azərbaycanda məscidlərdə çalışan imamlar və din xadimlərinin say məsələsi tamamilə elmi cəhətdən araşdırılıb. Məscidlərdə olan din xadimlərinin hazırlığında rəqəmlərin həddindən artıq böyük olmasına ehtiyac yoxdur. Misal olaraq, İlahiyyat İnstitutu 60 tələbə qəbul edirsə, kolleclər də 15 tələbə qəbul edəcək. Bu da din sahəsində olan tələbatı ödəyə biləcək. Kolleclər də pulsuz olacaq. Məqsəd ölkədə gənclərin din sahəsində bilikləri xaricə getmədən əldə etməsidir.



# "MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİNDƏ GƏNCLƏR TƏŞKİLATLARININ ROLU"



Sentyabrın 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərin təbliğində gənclər təşkilatlarının rolu" mövzusunda konfrans keçirilib.

Tədbirdə DQİDK və Gənclər Fondunun rəhbərliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Qafqaz Müsəlmanları İdarəsi (QMİ) və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) rəsmiləri, ölkəmizdə fəaliyyət göstərən dini konfessiya rəhbərləri, QHT nümayəndələri və gənclər iştirak ediblər.

DQİDK-nın sədr müavini Gündüz İsmayılovun moderatorluğu ilə keçirilən konfransda çıxış edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan milli-mənəvi dəyərlərini və xalqımıza məxsus xüsusiyyətləri qoruyub saxlayır. Milli-mənəvi dəyərlərimizə dil, din, ailə, milli mənsubiyyət, müstəqillik, Azərbaycançılıq ideologiyası və sair bu kimi önəmli məfhumlar daxildir. Azərbaycan xalqının söykəndiyi bu dəyərlər Ulu Öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durur. Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində mühüm işlər görülür və bu işlər davam etdiriləcək. Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, dini, milli-mənəvi dəyərlərin qorunması sahəsində də ardıcıl siyasət həyata keçirir. Dövlət Komitəsinin sədri dövlət başçısı tərəfindən Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasını bu sahəyə diqqət və qayğının növbəti nümunəsi adlandırıb. Fondun Azərbaycan xalqına məxsus mənəvi və milli dəyərlərin gənc nəslə daha geniş şəkildə çatdırılması istiqamətində işlər həyata keçirdiyini deyib.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov çıxışında informasiya texnologiyalarının inkişaf etdiyi bir zamanda mənəvi dəyərlərin qorunması işinin bir qədər mürəkkəbləşdiyini qeyd edib. F.Cəfərovun sözlərinə görə, dünyada gedən proseslərə diqqət yetirdikdə görmək olur ki, bütün münaqişələrin kökündə mənəvi dəyərlərin təbliği işinin düzgün aparılmaması durur. O vurğulayıb ki, Gənclər Fondu mənəvi dəyərlərin təbliği və təşviqi sahəsində gənclər təşkilatlarının yüzlərlə layihəsinə dəstək verir.

QMİ-nin Aparat rəhbəri Simran Həsənov bildirib ki, təmsil etdiyi qurumun fəaliyyət istiqamətinin əsas hissəsini bu ali dəyərlərin təbliği təşkil edir. Dövlətin bu sahəyə xüsusi diqqət və dəstək verdiyini bildirən S.Həsənov Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasının, din xadimlərinə maddi dəstək göstərilməsin bunun bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin məsləhətçisi Aydan Kərimli qeyd edib ki, sağlam düşüncəli yeni nəslin yetişdirilməsi dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. O, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı, gənclər üzrə təşkilatların formalaşması və inkişafı üçün hər cür şəraitin yaradıldığını diqqətə çatdırıb. Bu istiqamətdə müvafiq qurumların fəaliyyət göstərdiyini, dövlət proqramlarının qəbul edildiyini bildirib. Milli-mənəvi dəyərlərin təbliğində gənclərin potensialından istifadənin əhəmiyyətinə toxunan Aydan Kərimli bu sahədə gənclər təşkilatlarını fəal olmağa çağırıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Aparat rəhbəri İsaxan Vəliyev, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, BBMM icraçı direktor əvəzi Rəvan Həsənov, DQİDK yanında İctimai Şuranın sədri, Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının icraçı direktoru Faiq Məmmədov da çıxış edərək bildiriblər ki, milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyükdür. Natiqlər, eyni zamanda milli-mənəvi dəyərlərin təbliği istiqamətində sosial şəbəkələrin imkanlarından istifadənin, qısametrajlı filmlərin çəkilməsinin önəminə toxunublar.

Konfrans milli-mənəvi irsimizin düzgün təbliği və bu sahədə gənclər təşkilatlarının üzərinə düşən vəzifələrin müzakirəsi ilə yekunlaşıb.

# Dövlət Komitəsində görüşlər

Sentyabrın 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki müvəqqəti işlər vəkili Uilyam R.Qil ilə görüşüb. Qonağı səmimi salamlayan M.Qurbanlı Azərbaycandakı tolerant və multikultural mühitdən, dövlət-din münasibətlərindən danışıb. Vurğulayıb ki, bu gün Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətini maarifçilik təşkil edir. Əsas məqsədlərdən



biri cəmiyyətdə xurafat və radikalizmin yayılmasının qarşısını almaqdır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən müvəqqəti işlər vəkili Uilyam Qil iki ölkə arasında bütün sahələrdə, o cümlədən dini radikalizm və ekstremizə qarşı mübarizə sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini qeyd edib. O bildirib ki, ABŞ və Azərbaycan dost və tərəfdaş ölkədir. U. Qil Azərbaycanın yüksək tolerantlıq nümunəsi olduğunu xüsusi vurğulayaraq, bu siyasətin dövlət səviyyəsində həyata keçirilməsindən məmnunluğunu ifadə edib.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı sentyabrın 20-də Avropa İttifaqının Cənubi Qafqaz Nümayəndəliyinin rəhbəri Səccad Kərimi ilə görüşüb.

M.Qurbanlı DQİDK-nın fəaliyyət istiqamətləri, mövcud dövlət-din münasibətləri, dini konfessiyaların fəaliyyəti haqqında qonaqlara ətraflı məlumat verərək ölkəmizdə hökm sürən tolerant və mültikultural mühit barədə danışıb. Dövlət Komitəsinin sədri vurğulayıb ki, Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən



biri kimi tanınır və ölkədə fəaliyyət göstərən bütün konfessiyalara dövlət tərəfindən daim maddi və mənəvi dəstək göstərilir, dini ibadət yerləri təmir olunur, yeniləri tikilir.

S.Kərim ölkəmizin bütün sahələrdə dinamik inkişafını, Azərbaycanda olan dini tolerantlıq mühiti və dövlətin bu istiqamətdə yürütdüyü siyasəti yüksək qiymətləndirib. O, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələri yüksək dəyərləndirərək, bütün sahələr üzrə yüksək səviyyəli əməkdaşlığın davam etdirilməsindən məmnunluğunu ifadə edib.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı sentyabrın 26-da Gürcüstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze ilə görüşüb.

M.Qurbanlı Azərbaycanla Gürcüstan arasında dostluq və qardaşlıq əlaqələrinin tarixi köklərə malik olduğunu və bu münasibətlərin hazırda da uğurla davam etdiyini vurğulayıb. Azərbaycanda müxtəlif dini konfessiyaların əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini, dövlət tərəfindən



Azərbaycanda yaşayan müxtəlif dini konfessiyaların nümayəndələrinə daima xüsusi diqqət göstərildiyini, onların ibadəti üçün hər bir şəraitin yaradıldığını diqqətə çatdırıb.

Azərbaycanda səfir kimi fəaliyyət göstərməkdən məmnunluğunu ifadə edən Zurab Pataradze ölkələrimiz arasında bütün sahələrdə, eləcə də din sahəsində mövcud əlaqələrin daha da möhkəmlənməsi və dərinləşməsi üçün dərin səy göstərəcəyini bildirib.

* * *

Sentyabrın 27-də DQİDK sədrinin müavini Səyavuş Heydərov ABŞ-ın Cənubi Karolina ştatının paytaxtı Kolumbiya şəhərində yerləşən "Gate Way" kilsəsinin baş pastoru Don Brukla görüşüb.

Qonaqlara Azərbaycandakı dini durum barədə məlumat verən S.Heydərov qeyd edib ki, ölkəmizdə dini etiqad azadlığı yüksək səviyyədə təmin edilir. Azərbaycanda tolerantlığın tarixi köklərinin olduğunu



vurğulayan Dövlət Komitəsinin sədr müavini diqqətə çatdırıb ki, multikultural və tolerant ənənələr ölkəmizə xaricdən idxal edilməyib, o, xalqımızın gen yaddaşının məhsuludur və bu gün dövlət siyasətinin tərkib hissəsinə çevrilib.

"Gate Way" kilsəsinin 45 min kilsəni birləşdirən dini mərkəz olduğunu deyən Don Bruk Azərbaycana ilk səfərinin onda çox gözəl təəssürat yaratdığını, ölkəmizin dövlət-din münasibətləri modelinin təqdirəlayiq olduğunu qeyd edib. Vurğulayıb ki, bu model qorunub inkişaf etdirilməklə yanaşı, nəinki region dövlətlərində, bütün dünyada nümunə kimi tətbiq olunmalıdır.

# Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərlərindən

## *Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə*

**Möhtərəm cənab Prezident!**

Biz - Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri milli-mənəvi dəyərlərimizin qorunmasına, multikulturalizm və tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə göstərdiyiniz qayğının əyani göstəricisi olan Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında imzaladığınız Sərəncama görə Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk.

Dünyanın bir çox ölkəsində ksenofobiya, islamofobiya, antisemitizm, irqi ayrı-seçkiliyin tüğyan etdiyi bir dövrdə Azərbaycan müxtəlif millətlərin və dinlərin nümayəndələrinin qardaşlıq və həmrəylik şəraitində yaşadığı nadir dövlətlərdən biridir. Ölkəmizdəki bu tolerant mühitin yaradılması və inkişafı bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər, həmçinin müstəqil Azərbaycanda möhkəm dayaqlara əsaslanan dövlət-din münasibətləri modelinin də əsasını qoymuşdur. Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra milli-mənəvi dəyərlərimizin qorunması, dini ibadət ocaqlarının bərpası və inşası Ulu Öndərin daim diqqətində olmuşdur.

Bu gün də Sizin müdrik rəhbərliyinizin nəticəsində ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədədir. Müstəqilliyimizi bərpa etdiyimiz dövrdə Azərbaycanda 17 məscid fəaliyyət göstərdiyi halda, bu gün ölkəmizdə iki min beş yüzədək məscid mövcuddur və bu ibadətgahların bir çoxunun bərpası və inşası dövlət tərəfindən həyata keçirilmişdir. Sizin müdrik siyasətiniz nəticəsində ölkəmizdə məscid, kilsə və sinaqoqların bərpasına və yenilərinin inşasına xüsusi diqqət yetirilir. Gəncədəki İmamzadə ziyarətgahı, Şamaxı Cümə məscidi, xüsusilə Qafqazın ən böyük ibadət ocağı olan Heydər məscidi başda olmaqla, bir çox ibadətgahın dövlət vəsaiti ilə bərpası və inşası Sizin dinə olan qayğı və diqqətinizin əyani göstəricisidir.

Müasir Azərbaycanın iqtisadi və hərbi gücü ilə yanaşı, mədəni gücü ilə də dünya ölkələri sırasında özünəməxsus yeri vardır. Sizin müdrik və uzaqgörən siyasətiniz nəticəsində bu gün bütün dünya Azərbaycanı multikulturalizmin və tolerantlığın mərkəzi kimi tanıyır. Dövlətimizin bu siyasətini dünyadakı böyük din mərkəzləri rəğbətlə qarşılayır. 2016-cı ili "Multikulturalizm İli" elan etməyiniz dünyada get-gedə rəvac tapmağa çalışan mono-kultural düşüncələrə layiqli cavabdır. Həmçinin imzaladığınız Sərəncamla 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi məzhəbçilik və təfriqəçilik ideyalarına qarşı İslam dünyasını vəhdətə səsləyən mühüm bir mesaj olmuşdur. Multikultural dəyərlərə sadiqlik baxımından dünyaya nümunə olan ölkəmiz, İslam həmrəyliyinə verdiyi önəm baxımından da müsəlman dünyası üçün örnəkdir. Təsadüfi deyildir ki, dünyada böyük nüfuz sahibi olan bir çox dini lider Azərbaycanın müxtəlif dinlərin və xalqların nümayəndələrinin sülh şəraitində yaşadığı ölkə olduğunu vurğulamış və bu birgəyaşayış ənənəsinin ölkəmizin haqlı olaraq fəxr edə biləcəyi dini dözümlülük və qarşılıqlı anlaşma sayəsində mümkün olduğunu bildirmişdir. Şübhəsiz ki, bütün bunlar Ulu Öndərin və Zati-alinizin ümumbəşəri dəyərlərə əsaslanan siyasətinin nəticəsində olmuşdur. Xalqımıza məxsus olan ali insani dəyərlərin dünyada təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri də danılmazdır.

Təəssüflə qeyd edirik ki, müasir dünyanın bir çox yerində dini dəyərləri istismar edən radikal qüvvələrin destruktiv fəaliyyətinə şahid oluruq. İnsanların ən müqəddəs duyğularından sui-istifadə edən belə qüvvələr din adı ilə müxtəlif mənfi hərəkətlərə yol verərək bir çox ölkəni xaosa sürükləməyə nail olmuşlar. Onların dünyanın müxtəlif guşələrində özlərinə sosial dayaq tapmalarında dini dəyərlərin insanlara düzgün çatdırılmamasının rolu danılmazdır. Bu baxımdan dünya dinlərini, o cümlədən İslamı, xristianlığı və yəhudiliyi elmi əsaslarla tədris edən təhsil müəssisələrinə ciddi ehtiyac vardır. Belə müəssisələrin mövcudluğu ali dini və bəşəri dəyərlərin insanlara çatdırılması, eləcə də dini fanatizmin və radikalizmin qarşısının alınması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasına dair imzaladığınız Sərəncam da məhz bu mərama xidmət edir. İnstitutun dinşünaslıq və islamşünaslıq sahələrindəki təhsil standartları, eləcə də bu müəssisədə dərin biliyə və yüksək intellektə malik olan, müxtəlif dillərdə sərbəst şəkildə mühazirə oxuya bilən alimlərin çalışması onu deməyə əsas verir ki, Azərbaycan İlahiyyat İnstitutu Sizin etimadınızı doğruldacaq, imzaladığınız Sərəncamda da qeyd olunduğu kimi, Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin edən elm ocağına çevriləcəkdir.

Möhtərəm cənab Prezident!

Sizi əmin etmək istərdik ki, Azərbaycan İlahiyyat İnstitutu istər İslam dini, istərsə də digər dünya dinlərini dərindən bilən, dövlətçiliyimizin keşiyində duran yüksək ixtisaslı dinşünas və islamşünas kadrlar hazırlayaraq təkcə ölkəmizdə deyil, bütün dünyada tanınan ali təhsil müəssisələrindən birinə çevriləcəkdir.

Dərin hörmət və ehtiramla,

***Şeyxülislam Allahşükür Paşazadə***
*Qafqaz Müsəlmanları İdarəsinin sədri*
***Aleksandr***
*Bakı və Azərbaycanın arxiyepiskopu*
***Milix Yevdayev***
*Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri*
***Aleksandr Şarovski***
*Avropa yəhudilərinin Bakı icmasının sədri*
***Robert Mobili***
*Alban-udi dini icmasının sədri*

# «DİNİ İCMALAR VƏ GƏNCLƏR: DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ VƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ»

## OĞUZDA

Sentyabrın 13-14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Oğuz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.



Din xadimləri, gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Oğuz RİH başçısının müavini Yusif Naxçıvanski rayondakı dini durum barədə məlumat verib. Qeyd edib ki, Oğuz rayonu etnik və dini tərkibinə görə Azərbaycanın ən unikal bölgələrindən biridir. Rayonda müsəlman, xristian və yəhudi dinlərinin mənsubları, eləcə də müxtəlif millətlərin nümayəndələri qədim zamanlardan bəri sülh və qardaşlıq şəraitində yaşayırlar.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxışında ölkəmizdə mövcud olan dövlət-din münasibətlərindən, o cümlədən dini radikalizm və dini ekstremizmin törətdiyi fəsadlardan bəhs edib. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlərin əhəmiyyətini vurğulayan S.Salahlı milli-mənəvi dəyərlərin vətənpərvərlik hisslərinin formalaşmasında da mühüm rol oynadığını, müstəqilliyimizin bərpasından sonra həyata keçirilən uzaqgörən siyasətin dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasına böyük zəmin yaratdığını qeyd edib. Gənclərə öz tövsiyələrini verən S.Salahlı dini radikal qrupların zərərli təsirindən qorunmaq üçün onlara elm və təhsilə maraq göstərmələrini, asudə vaxtlarını səmərəli keçirmələrini məsləhət görüb.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə dini radikal qrupların təbliğat metodlarından danışıb. Bildirib ki, bu qruplar İslamı, Quran ayələrini təhrif edərək insanlara çatdırır, cihad adı altında terror hadisələri törədirlər. Natiq qeyd edib ki, gənclərin dini radikalizm və ekstremizmdən qorunması üçün təhsil və dinin əsl mahiyyətinin onlara düzgün çatdırılması vacibdir.

Dövlət Komitəsinin əməkdaşı Tərxan Paşazadə isə dini ekstermizmə qarşı mübarizənin məqsədləri və əsas prinsipləri mövzusunda təqdimatla çıxış edərək radikalizmlə mübarizənin hüquqi tərəflərini dinləyicilərin diqqətinə çatdırıb.

Daha sonra DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş etdirilib.

Tədbirin ikinci günü də çıxışlarla davam edib. Qafqaz Müsəlmanları İdarəsinin Şəki-Oğuz bölgə qazısı Kamran Məmmədov öz çıxışında gənclərin milli-mənəvi ruhda tərbiyə edilməsi və düzgün maarifləndirilməsinin əhəmiyyətindən, onları radikal təsirlərdən qorumağın yollarından danışıb. Qeyd edib ki, əgər din öz məfkurəsindən, elmi izahından uzaqlaşarsa, dini radikalizm,



yəni dində ifratçılıq yaranar və vətənpərvərlik, milli kimliyimiz unudular.

Seminar-müşavirənin sonunda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, iştirakçılara Dövlət Komitəsinin nəşri olan dini ədəbiyyatlar paylanılıb

# «DİNİ İCMALAR VƏ GƏNCLƏR: DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ VƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ»

## ASTARADA

"Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda növbəti ikigünlük seminar-müşavirə sentyabrın 27-də Dini



Qurumlarla İş üzrə Dövlət Komitəsi və Astara Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə keçirilib. Tədbirdə dini icma sədrləri, din xadimləri, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Astara RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Mərasim Hacıyev rayondakı dini durum barədə məlumat verib. Qeyd edib ki, Astara rayonu İslam dininin hər iki məzhəbinin sülh, həmrəylik və vəhdət şəklində yaşadığı unikal bölgələrdən biridir.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxışında əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin Azərbaycan modeli, eləcə də dini radikalizm və ekstremizmin törətdiyi fəsadlar haqqında məlumat verib. O vurğulayıb ki, əsası Ümummilli Lider tərəfindən qoyulan din siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, ölkəmizdə tolerant və multikultural mühit formalaşıb və bu, bütün dünyada müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul edilir. Natiq dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə milli-mənəvi dəyərlərimizin qorunmasına və tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə böyük önəm verildiyini vurğulayıb. S.Salahlı onu da qeyd edib ki, respublikamızda qəbul edilən qanunlar və normativ hüquqi aktlar dini etiqad azadlığını təmin edir, eyni zamanda dövlətlə dini qurumlar arasındakı münasibətləri qanun çərçivəsində tənzimləmək üçün hüquqi əsas yaradır.

S.Salahlı dini radikalizmə qarşı mübarizənin metodları haqqında danışıb. Natiq gənclərin vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunması sahəsində həyata keçirilən tədbirlərin əhəmiyyətinə toxunub. Müasir dövrdə dünyanın dini ekstremizm və terrordan ciddi əziyyət çəkdiyini, terror hadisələri səbəbindən dünyanın əksər bölgələrində ictimai-siyasi sabitliyin pozulduğunu vurğulayıb. Bütün bunlara baxmayaraq, Azərbaycanda müxtəlif xalqlar, dinlər və məzhəblər arasında qarşılıqlı anlaşma və həmrəyliyin hökm sürdüyünü qeyd edib.

**Seminar-müşavirə öz işini növbəti gün davam etdirib**

Gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirənin ikinci günündə əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov çıxışında gənclər arasında dini maarifləndirmə və milli-mənəvi dəyərlər ruhunda keçirilən tədbirlərin əhəmiyyətindən danışıb. Natiq bu kimi tədbirlərin dini radikalizmə qarşı mübarizədə effektiv olduğunu bildirib.

Daha sonra çıxış edən Astara RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Mərasim Hacıyev qeyd edib ki, tədbirin keçirilməsində məqsəd gəncləri dini radikalizm və onun fəsadları haqqında məlumatlandırmaqdır. M.Hacıyev dini radikalizmə qarşı mübarizə və gənc nəslin dini radikal qruplara qoşulmasının qarşısını almaq üçün onların düzgün dini bilgilərlə məlumatlandırılmasının vacibliyini vurğulayıb.

Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin Dini təhsil sektorunun müdiri vəzifəsini icra edən Əli Həziyev çıxışında ölkəmizdə dini radikalizmə qarşı mühüm tədbirlər həyata keçirildiyini vurğulayıb. Mövzunun aktuallığından danışan Ə.Həziyev gənclərin bu istiqamətdə maarifləndirilməsinin zəruriliyini qeyd edib. Radikal dini qrupların təbliğat metodları və həmin cərəyanlara qarşı aparılan 4 praktik metod haqqında məlumat verib.

Seminar-müşavirə iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# "MİLLİ TƏHLÜKƏSİZLİYƏ ƏSAS TƏHDİDLƏRDƏN BİRİ – DİNİ EKSTREMİZM"




Sentyabrın 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Suraxanı Rayon İcra Hakimiyyəti (RİH) ilə birlikdə "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri - dini ekstremizm" mövzusunda tədbir keçirib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzülüb, xatirəsi ehtiramla anılıb.

Suraxanı RİH-in başçısı İlqar Abbasov çıxış edərək bildirib ki, bu tədbirin keçirilməsində məqsəd Azərbaycanda dini ekstremizmə qarşı mübarizə sahəsində görülən işləri və qarşıda duran vəzifələri müzakirə etməkdir. O, respublikamızda hər bir inanclı insanın dini etiqad azadlığının yüksək səviyyədə təmin edildiyini diqqətə çatdırıb.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov öz çıxışında əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərindən, ölkəmizdə formalaşmış tolerantlıq və birgəyaşayış mühitindən danışıb. Son illər Azərbaycanda keçirilən çoxsaylı forumların və bu forumlarda bəşəriyyəti narahat edən təhlükəsizlik problemlərinin həllinə yönəlmiş çağırışların əhəmiyyətinə toxunan sədr müavini bildirib ki, Azərbaycan dövlətinin din siyasətini digər müsəlman ölkələrindən fərqləndirən amillərdən biri də onun hər hansı məzhəbə deyil, İslamın təməl prinsiplərinə söykənməsi, vəhdət, həmrəylik prinsiplərinin bərqərar olmasına çalışmasıdır.

S.Heydərov Məhərrəm ayı və Aşura günü ilə bağlı tövsiyələrini də verərək hər kəsi Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Məhərrəm ayı ilə bağlı verdiyi fətva və tövsiyələrə riayət etməyə çağırıb.

Tədbirdə, həmçinin Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı Pənah Cahangirov, QMİ-nin sədr müavini Hacı Fuad Nurullayev, Baş Prokurorluğun idarə rəisinin müavini Rauf Məmmədov və Daxili İşlər Nazirliyinin şöbə rəisi Oqtay Tağıyev da çıxış ediblər.

* * *

Analoji tədbir sentyabrın 13-də Gəncə şəhərində keçirilib. DQİDK və Gəncə ŞİH-in təşkilatçılığı ilə baş tutan tədbirdə Naftalan şəhər, Goranboy, Göygöl, Samux, Daşkəsən, Kəlbəcər və Xocalı rayon icra hakimiyyətlərinin, habelə Daxili İşlər və Ədliyyə nazirliklərinin, Respublika Baş Prokurorluğunun və Dövlət Təhlükəsizliyi Xidmətinin yerli strukturlarının rəhbərləri iştirak ediblər.

Gəncə ŞİH-in başçısı Niyazi Bayramov Prezident İlham Əliyevin apardığı uğurlu siyasətdən danışaraq bildirib ki, respublikanın hər yerində olduğu kimi, Gəncədə də islami dəyərlər qorunur. Hazırda şəhərdə 1 ziyarətgah və 6 məscid fəaliyyət göstərir, sakinlərin dini etiqad azadlıqlarını həyata keçirməsi üçün bütün şərait yaradılıb.

Ölkəmizdəki dini və etnik tolerantlıq, multikulturalizm və birgə yaşayış modelindən danışan DQİDK-nın sədr müavini Səyavuş Heydərov vurğulayıb ki, ölkəmizin inkişafını istəməyən qüvvələr tərəfindən Azərbaycana sadəcə siyasi yox, həm də dini müstəvidə təsirlər göstərilməsinə, yad dini ideologiyaların ixrac edilməsinə cəhdlər olunur. Belə tədbirlərin keçirilməsi məhz bu proseslər barədə vətəndaşları, xüsusilə də




gəncləri maarifləndirmək məqsədi daşıyır.

Tədbirdə Baş Prokurorluğun idarə rəisi Elşən Abbasov dini radikalizm və ekstremizm probleminə qarşı mübarizənin hüquqi əsaslarından, Daxili İşlər Nazirliyinin şöbə rəisi Oqtay Tağıyev isə dini radikalizm və dini ekstremizmə qarşı mübarizə çərçivəsində ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətlərindən danışıb.

Daha sonra çıxış edən QMİ-nin səlahiyyətli nümayəndəsi hacı Tahir Abbasov dövlətin dinə və dindarlara qayğısından bəhs edib.

# “Dini ekstremizm - ictimai təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi”



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi “Azərbaycan Dəmir Yolları” QSC ilə birgə sentyabrın 11-də “Dini ekstremizm - ictimai təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi” adlı tədbir keçirib. Tədbirdə QSC-nin sədri Cavid Qurbanov çıxış edərək mövzunun əhəmiyyətindən danışıb və belə tədbirlərin keçirilməsinin zəruriliyinə toxunub.

Daha sonra çıxış edən Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov “Bakı Prosesi” haqqında məlumat verərək bu platformanın mədəniyyətlər və dinlər arasında dialoq sahəsində daha konkret fəaliyyətlərə başlamaq məqsədilə Prezident İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə irəli sürüldüyünü deyib, Azərbaycanda keçirilən mədəniyyətlərarası və humanitar forumların əhəmiyyətindən danışıb.

Sədr müavini ölkəmizdə məzhəb ayrı-seçkiliyi yaratmağa, əmin-amanlığı, sabitliyi pozmağa, digər ölkələrin milli xüsusiyyətlərini, dini ideologiyalarını İslam adı altında ölkəmizdə təbliğ etməyə çalışan bəzi cərəyanlarla mübarizə aparıldığını, vətəndaşlarımızın, xüsusilə gənclərin zərərli dini ideologiyaların təsiri altına düşməsinin qarşısının alınması üçün zəruri işlərin həyata keçirildiyini diqqətə çatdırıb.

Daha sonra tədbir iştirakçılarına “Şəhadət” filmi nümayiş etdirilib.

* * *

***Bu qəbildən olan növbəti tədbir sentyabrın 19-da “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətində dini radikalizm keçirilib.***

Seminar-müşavirədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov, “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin baş direktoru Taleh Ziyadov, baş direktorun müavini Fərid Əhmədov və “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nın əməkdaşları iştirak ediblər.

Tədbirdə “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Taleh Ziyadov çıxış edərək mövzunun əhəmiyyətindən danışıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov bildirib ki, Ölkəmizdəki dini və etnik tolerantlıq, multikulturalizm və birgəyaşayış modeli dünya birliyi tərəfindən yüksək dəyərləndirilir. Əgər müstəqilliyimizin ilk illərində ölkəmiz dinlərarası, mədəniyyətlərarası, sivilizasiyalararası dialoqun iştirakçısı idisə, hazırda Azərbaycan dünyada gedən bu prosesin hərəkətverici qüvvəsinə çevrilib.

Respublikamızda ictimai-siyasi, dini sabitliyin mövcud olduğunu qeyd edən DQİDK-nın sədr müavini deyib ki, dini radikalizmdən istifadə etmək istəyən qüvvələr çalışırlar ki, müxtəlif dövlət qurumlarına nüfuz etsinlər. Lakin bu məsələdə hər kəs diqqətli olmalı və bu cür hallara imkan verməməlidir.

Səyavuş Heydərov qeyd edib ki, ölkəmizin inkişafını istəməyən qüvvələr tərəfindən Azərbaycana sadəcə siyasi yox, həm də dini müstəvidə təsirlərin göstərilməsinə, yad dini ideologiyaların ixrac edilməsinə cəhdlər olunur. İslam dininin xurafat formasında təqdim olunması və siyasiləşdirilmiş formada genişləndirilməsi bu təxribatçı qüvvələrin məqsədidir. Belə seminar-müşavirələrin keçirilməsi bu proseslər barədə vətəndaşları, xüsusilə də gəncləri maarifləndirmək məqsədi daşıyır.

Daha sonra tədbir iştirakçılarına “Şəhadət” filmi nümayiş etdirilib.

# Məhərrəmlik ayı ilə əlaqədar təhlükəsizlik tədbirləri müzakirə olunub




Bakı Şəhər Baş Polis İdarəsində (BŞBPİ) Məhərrəmlik ayı ilə bağlı tədbir keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin müavini Səyavuş Heydərovun iştirakı ilə keçirilən tədbirdə Azərbaycandakı dini durum, bu sahədə baş verən proseslər, o cümlədən bəzi xarici ölkələr, onların nəzarətində olan mərkəzlər tərəfindən respublikamıza qarşı dini müstəvidə yönəlmiş təhdid və təsirlər müzakirə olunub.

Səyavuş Heydərov çıxış edərək bildirib ki, bu gün Azərbaycan dövlətinin din sahəsindəki başlıca vəzifəsi vətəndaşlarımızın dini etiqad azadlığının yüksək səviyyədə təmin olunması, dövlət-din münasibətlərinin tənzimlənməsi və təkmilləşdirilməsidir. Bu baxımdan milli təhlükəsizlik konsepsiyasının əsas elementlərindən biri olan dini təhlükəsizliyin təminatı ciddi əhəmiyyət kəsb edir. Çünki dini təhlükəsizlik milli təhlükəsizliyin təminatında başlıca yer tutur, eyni zamanda ictimai-siyasi asayişin daha mükəmməl təminatı üçün olduqca mühümdür.

S.Heydərov dini radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları barədə də ətraflı məlumat verib. Bu sahədə Dövlət Komitəsinin digər qurumlar, o cümlədən hüquq-mühafizə orqanları ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb. S.Heydərov onu da qeyd edib ki, zərərli dini ideologiyaların təsirinə məruz qalan şəxslərin ətrafında müvafiq tədbirlər həyata keçirilməklə onların reabilitasiyası və cəmiyyətə reinteqrasiyasına diqqətin artırılması vacib məsələdir.

Daha sonra Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis general-mayoru Səhlab Bağırov çıxış edərək dini radikalizmə qarşı mübarizədə aidiyyəti qurumlarla, o cümlədən DQİDK ilə birgə fəaliyyətin əhəmiyyətindən və bu sahədə əldə olunmuş müsbət nəticələrdən danışıb.

# “Mənəvi dəyərlərimiz: dünən, bu gün, sabah” mövzusunda tədbir keçirilib

Sentyabrın 18-də Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə Sumqayıtda “Mənəvi dəyərlərimiz: dünən, bu gün, sabah” mövzusunda tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Gündüz İsmayılov, Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinin əməkdaşları, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Fərman Kazımov, Qafqaz Müsəlmanları İdarəsinin Sumqayıt bölgəsi üzrə qazısı Rauf Sərdarov, Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının üzvləri, məktəb direktorlarının müavinləri, din xadimləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Ülvi Məmmədov mövzunun əhəmiyyətindən, eləcə də bu dəyərlərimizin tərkib hissəsi olan dini dəyərlərimizin qorunmasının vacibliyindən bəhs edib.

DQİDK sədrinin müavini Gündüz İsmayılov mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılmasının vacibliyinə toxunub. G.İsmayılov dini dəyərlərimizin mənəvi dəyərlərimiz içərisində özünəməxsus yerinin olduğunu qeyd edib.



Sədr müavini bildirib ki, Aşura mərasimlərində Qafqaz Müsəlmanları İdarəsinin fətvasına, orada qeyd olunan tövsiyələrə əməl edilməlidir. G.İsmayılov vurğulayıb ki, Məhərrəmlik mərasimləri qanun çərçivəsində keçirilməli, zəncir vurmaq, baş yarmaq kimi xalqımızın mədəniyyətinə və dinimizə uyğun olmayan əməllərə yol verilməməlidir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Fondun fəaliyyəti haqqında qısa məlumat verərək bildirib ki, hər bir xalqın varlığını qoruyan əsas amillərdən biri də milli-mənəvi və dini dəyərlərdir və Azərbaycan xalqı da zəngin mənəvi, dini dəyərlərə sahibdir.

Daha sonra çıxış edən Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Fərman Kazımov gənclərin milli-mənəvi dəyərlərə bağlı ruhda tərbiyə olunmalarının əhəmiyyətindən danışıb.

Qafqaz Müsəlmanları İdarəsinin Sumqayıt bölgəsi üzrə qazısı Rauf Sərdarov dövlətin dinə və dindarlara göstərdiyi qayğıdan danışıb.

# “Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər”




**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şamaxı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə sentyabrın 24-də “Dini radikalizmlə mübarizə və maarifləndirmə” mövzusunda tədbir keçirilib.**

Tədbirdə DQİDK sədrinin müavini Gündüz İsmayılov, Şamaxı RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Rəşad Əliyev, Şamaxı Rayon Təhsil Şöbəsinin müdiri Eyvaz Eminalıyev, Rayon Gənclər və İdman İdarəsinin rəisi Şahmar Hüseynov, Bilik Fondunun Şamaxı rayonu üzrə nümayəndəsi, Sabir qəsəbə tam orta məktəbinin direktoru Gülnur Babaşova, Yeni Azərbaycan Partiyası Şamaxı Rayon Təşkilatının sədri Bəxtiyar Abbasov, eləcə də orta məktəb direktorları, onların təlim-tərbiyə işləri üzrə müavinləri, “Həyat bilgisi” fənnini tədris edən müəllimlər və məktəb psixoloqları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Rəşad Əliyev bildirib ki, dini radikalizmlə mübarizədə dini maarifləndirmə sahəsinə xüsusi diqqət ayrılmalı, gənclərin dini radikal qrupların təsirinə düşmələrinin qarşısını almaq üçün din onlara düzgün şəkildə çatdırılmalıdır.

DQİDK sədrinin müavini Gündüz İsmayılov dini radikalizm və ekstremizm haqqında məlumat verərək onlara qarşı mübarizə üsullarından danışıb. Bildirib ki, dini zəmində ayrı-seçkilik yaratmağa çalışan qüvvələrin əsas hədəfi yeniyetmə və gənclər olduğundan, bu kontingentlə sıx təmasda olan müəllimlərin üzərinə böyük məsuliyyət düşür.

Dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində görülən işlərdən danışan G.İsmayılov bildirib ki, dövlətin din siyasətinin prioritetlərini xalqımızın tolerantlıq ənənələrinin və dini müxtəlifliyimizin tolerant əsaslarının qorunub saxlanılması, Azərbaycanın əldə etdiyi multikultural nailiyyətlərin beynəlxalq ictimaiyyətə təbliği təşkil edir.

Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov ölkəmizdə



dini radikalizm və ekstremizmə qarşı aparılan mübarizə tədbirlərindən danışıb. Bildirib ki, dini radikalizmlə mübarizədə ilk növbədə onu yaradan səbəbləri müəyyənləşdirmək lazımdır.

Mövzu ilə bağlı Bilik Fondunun Şamaxı rayonu üzrə nümayəndəsi, Sabir qəsəbə tam orta məktəbinin direktoru Gülnur Babaşova və başqaları öz fikirlərini bildirib, keçirilən tədbirlərin gənclərin dini radikalizmə qarşı maariflənməsində önəminə diqqət çəkiblər.

* * *

**Bu mövzuda növbəti tədbir sentyabrın 25-də Zaqatalada baş tutub.**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Zaqatala RİH-in birgə təşkilatçılığı ilə keçirilən tədbirdə DQİDK sədrinin müavini Gündüz İsmayılov, Zaqatala RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Ramin Həsənov, rayon Gənclər və İdman İdarəsinin nümayəndələri, Yeni Azərbaycan Partiyası Zaqatala rayon təşkilatının gənc üzvləri, eləcə də orta məktəb direktorlarının təlim-tərbiyə işləri üzrə müavinləri, “Həyat bilgisi” fənnini tədris edən müəllimlər və məktəb psixoloqları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Ramin Həsənov müasir cəmiyyətdə radikallıq zəminində baş verən hadisələri qınayıb və buna qarşı mübarizədə maarifləndirmənin effektiv vasitə olduğunu qeyd edib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət-din münasibətləri və respublikamızda mövcud olan məzhəblərarası vəhdət bütün dünya üçün bir nümunədir.

Dini radikalizm və ekstremizmin sosial və ictimai zərərləri, bu cür meyillərə qarşı mübarizə tədbirləri haqqında məlumat verən G.İsmayılov respublikamızda bu istiqamətdə maarifləndirmə işinin yüksək səviyyədə təşkil edildiyini vurğulayıb. Onun sözlərinə görə, Dövlət Komitəsi tərəfindən ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, tarixən mövcud olan tolerantlıq ənənələrinin qorunması istiqamətində maarifləndirmə işləri həyata keçirilir.

Radikal dini qrupların Azərbaycanda ciddi dayaqlarının olmadığını qeyd edən G.İsmayılov radikallığın prinsiplərindən olan məzhəbçiliyin fəsadlarına toxunub. Sədr müavini deyib ki, dini radikalizm savadsızlıq, xurafat, təhsildən yayınma meyilləri olan ölkələrdə, bölgələrdə yayılır: “Azərbaycanda son illər ölkədən kənardakı münaqişə zonalarında silahlı birləşmələrə qoşulma halı qeydə alınmayıb. Bunun özü də deməyə əsas verir ki, Azərbaycanda dini radikalizmə qarşı görülən işlərin konkret nəticələri var. Hansısa radikal dini, terror qruplarının Azərbaycana təsir etməsi real deyil. Çünki Azərbaycanın iqtisadi imkanları, hüquq mühafizə orqanlarının bu sahədə fəaliyyəti, eyni zamanda paralel olaraq aparılan ideoloji iş bu cür qrupların Azərbaycanda özlərinə dayaq tapmasını mümkünsüz edir”.

Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov dini radikalizm və onun əsas təbliğat metodlarından danışaraq məsələyə qanunvericilik nöqteyi-nəzərindən yanaşıb. Dini radikalizmin prinsiplərindən olan dini baxışların yayılmasında aqressiv üsul və vasitələrdən istifadə edilməsi və onların psixoloji təsir üsullarından olan informasiyadan və cəmiyyətdən təcrid etmə metodunu ətraflı izah edib.

* * *

**“Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər” mövzusunda daha bir tədbir sentyabrın 28-də DQİDK və Biləsuvar RİH-in birgə təşkilatçılığı ilə keçirilib.**

Tədbirdə DQİDK sədrinin müavini Gündüz İsmayılov, Biləsuvar RİH başçısının müavini Ləman Yüzbaşova, Biləsuvar rayon Təhsil şöbəsinin müdiri Balaqardaş Kazımov, Yeni Azərbaycan Partiyası rayon təşkilatının gənc üzvləri, eləcə də orta məktəb direktorlarının təlim-tərbiyə işləri üzrə müavinləri, “Həyat bilgisi” fənnini tədris edən müəllimlər və məktəb psixoloqları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Biləsuvar RİH başçısının müavini Ləman Yüzbaşova mövzunun əhəmiyyətindən danışaraq, rayondakı dini durum barədə məlumat verib. İH başçısının müavini Dövlət Komitəsi tərəfindən maarifləndirmə məqsədilə rayon və şəhərlərdə ardıcıl olaraq dəyirmi masaların və konfransların keçirilməsini yüksək qiymətləndirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov qeyd edib ki, dini tolerantlıq dövlət siyasətinin tərkib hissəsidir. Onun sözlərinə görə,



respublikamızda dövlət-din münasibətləri “Dini etiqad azadlığı haqqında” Qanun və digər müvafiq qanunvericilik aktları ilə tənzimlənir. Belə ki, ölkəmizdə vicdan azadlığı yüksək səviyyədə təmin edilməklə, bütün dinlərə bərabərhüquqlu münasibət göstərilməkdədir.

DQİDK-nın sədr müavini çıxışında dini radiklalizm və ona qarşı mübarizə tədbirlərindən də söhbət açıb. Bildirib ki, gəncləri radikal dini qruplara cəlb etmək üçün təsir altına salmağa, din pərdəsi altında özlərinin iqtisadi və digər maraqlarını təmin etməyə, bütövlükdə Azərbaycanda mövcud olan ictimai-siyasi sabitliyi pozmağa yönəlik fəaliyyətə rast gəlinir. Bu cür halların qarşısı bütün qanuni vasitələrlə alınır və bundan sonra da alınacaq. G.İsmayılov onu da vurğulayıb ki, Dövlət Komitəsi radikalizmlə mübarizə tədbirləri çərçivəsində dini maarifləndirmənin xüsusən gənclər arasında aparılmasının tərəfdarıdır.

Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov və Biləsuvar rayon Təhsil şöbəsinin müdiri Balaqardaş Kazımov çıxışlarında qeyd ediblər ki, radikal dini cərəyanların yayılması cəhdlərinin qarşısının alınması üçün gənclər arasında milli-mənəvi, xüsusilə dini dəyərlərin təbliğinə xüsusi diqqət yetirilməlidir.

Seminar-treninq iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə başa çatıb.

# DÖVLƏT KOMİTƏSİ MƏHƏRRƏM AYI İLƏ ƏLAQƏDAR SİLSİLƏ TƏDBİRLƏR KEÇİRİB



Sentyabrın 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib.

Tədbirdə çıxış edən DQİDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva bildirib ki, Dövlət Komitəsinin paytaxt və regionlarda təşkil etdiyi tədbirlərin təşkilində əsas məqsəd milli-mənəvi irsimizin düzgün təbliği, dini mərasimlərin milli-mənəvi dəyərlərimizə və müasir dövrün tələblərinə uyğun keçirilməsi istiqamətində maarifləndirmə işinin aparılmasıdır. Bildirilib ki, bu gün keçirilən seminar-müşavirə iştirakçılarının ancaq qadınlar olması cəmiyyətimizdə, ölkəmizin ictimai-siyasi, sosial həyatında qadınların rolunu və mövqeyini göstərir. Y.Əliyeva bildirib ki, Azərbaycan qadını hər zaman cəmiyyətin avanqard qüvvəsi hesab olunub və taleyüklü məsələlərin həllinə, cəmiyyətin maarifləndirilməsi işinə öz dəyərli töhfəsini verib.

DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova isə bildirib ki, zaman keçdikcə, cəmiyyət dəyişdikcə sadəcə din və onun qayda-qanunları, hökmləri dəyişilməz qalır: "Adət-ənənələr, mərasimlər isə zamanla dəyişir, müasir dövrün tələbinə uyğunlaşır. Dini mərasimlər dinimizi, tariximizi, mədəniyyətimizi, ənənələrimizi, həyat tərzimizi əks etdirməlidir. Düzgün maariflənmə və maarifləndirmə, elmimizin və mənəviyyatımızın paralel inkişafı dinimizi xurafatdan, mövhumatdan qoruya və gələcək nəsillərə ötürə bilər".

Daha sonra çıxış edən Milli Məclisin deputatı Məlahət İbrahimqızı isə bildirib ki, xurafat və cəhalətə qarşı mübarizəni yalnız dövlət deyil, cəmiyyət də aparmalıdır. O vurğulayıb ki, Azərbaycan qadınları gələcək üçün sağlam nəsil yetişdirməlidir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova isə bildirib ki, İslam cəmiyyətdə faydalı din kimi təbliğ olunmalıdır. Bu işin reallaşmasında vəzifəsindən və statusundan asılı olmayaraq qadınlar daha çox fəallıq nümayiş etdirməlidir.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) mətbuat katibliyinin rəhbəri Rəhimə Dadaşova öz çıxışında bildirib ki, QMİ-nin təlimatlarına uyğun olaraq təyinat alan qadın mollalar yüksək dini biliklərə sahib olmalıdırlar. Məscidlərdə QMİ-nin təyinatı ilə işləyən din xadimlərinin daim attestasiyası keçirilir. Onların təhsilli olması, təkmilləşməsi də diqqətdə olan məsələlərdəndir.

* * *

Analoji tədbir sentyabrın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

Dövlət Komitəsinin şöbə müdiri Amil Cavadov ölkəmizdə həyata keçirilən uğurlu dövlət-din, gənclər siyasəti barədə danışıb. Bildirilib ki, tədbirin əsas məqsədi gənclərin dövlət-din sahəsində həyata keçirilən siyasətə münasibətini öyrənməkdir. A.Cavadov qeyd edib ki, dövlətimizin başçısı mütəmadi olaraq din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir, dini ibadət yerləri təmir-bərpa olunub inanclı insanların istifadəsinə verilir. Bütün bunlar Prezident İlham Əliyevin dinə və dindarlara, eləcə də mənəvi dəyərlərimizə diqqət və qayğısının bariz nümunəsidir.



Şöbə müdiri onu da vurğulayıb ki, insanlar, xüsusilə gənclər İslam dininin mahiyyətini anlamalıdırlar. Bunun üçün də oxumaq, dini bilgilərə yiyələnmək vacibdir.

Daha sonra çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, Azərbaycan tolerant dövlətdir, ona görə də ölkədə dini ayrı-seçkilik yoxdur. Azərbaycan parlamentinin üzvləri arasında xristian və digər dinlərin nümayəndələrinin olduğunu diqqətə çatdıran S.Orucov ölkəmizin hər zaman tolerantlıq prinsiplərinə sadiq qaldığını bildirib. Bütün bunlar Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının əsasını təşkil edir.

DQİDK-nın təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova çıxışında xalqımızın milli adət-ənənələri, əxlaqi, mənəvi dəyərlərindən, qədim tarixə malik zəngin mədəniyyətindən, Azərbaycan İlahiyyat İnstitutunun prorektoru Aqil Şirinov isə ölkəmizdə mövcud olan multikulturalizm dəyərlərindən bəhs edib.

Tədbir iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb.

# Mənəvi Dəyərlərin Təbliği Fondu paytaxt və regionlarda bir sıra tədbirlər həyata keçirib



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan, ölkəmizdə mənəvi dəyərlərin qorunmasına və inkişafına, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyi göstərən Mənəvi Dəyərlərin Təbliği Fondu bu məqsədlə paytaxt və regionlarda bir sıra tədbirlər həyata keçirir. Fond sentyabr ayı ərzində də öz fəaliyyətini səmərəli qurmuşdur. Belə ki:

Sentyabrın 11-də "İntihar: səbəblər və onunla mübarizə" mövzusunda konfrans keçirilib. Konfransda Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru, tanınmış psixoloqlar, ilahiyyatçılar, ziyalılar, tələbələr iştirak ediblər. İntiharın sosioloji, psixoloji səbəblərindən danışılan konfransda bildirilib ki, dünyada intihar xəstəlik və bədbəxt hadisələrdən sonra insan ölümünə görə 3-cü yerdə dayanır. Bu, vəziyyətdən çıxış yolu tapa bilməyən zaman baş verir. Bu gün intiharın qarşısını almaq üçün insan şüurunda dəyişiklik edilməlidir. Vurğulanıb ki, intiharların qarşısı almaq üçün maarifləndirmə işi daha sürətlə aparılmalıdır.

* * *

Mənəvi Dəyərlərin Təbliği Fondu Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu ilə birgə cəbhəyanı bölgədə yaşayan birinci sinif şagirdlərinə məktəbli forması, çanta və məktəb ləvazimatları hədiyyə ediblər. Bununla əlaqədar Füzuli, Ağcabədi, Ağdam, Bərdə və Tərtər rayonlarında, eləcə də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində məktəblilərlə görüş keçirilib. Görüşdə Fondun icraçı direktoru Mehman İsmayılov, icraçı direktorun müavini Ceyhun Əliyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Ağcabədi bölgəsi üzrə şöbəsinin müdiri Əlizadə Nəcəfov və Bilik Fondunun nümayəndəsi Elvin Hətəmov iştirak ediblər.

* * *

Sentyabrın 13-də Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən bərpa edilmiş 1993-cü ildə Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olan Fərhad Nəsirovun qəbirüstü abidəsinin açılış mərasimi olub. Mərasimdə Fondun icraçı direktoru M.İsmayılov, icraçı direktorun müavini C.Əliyev, DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin müdiri Ə.Nəcəfov, şəhidin ailə üzvləri və silahdaşları iştirak ediblər.

* * *

Sentyabrın 17-də Türkiyə Diyanət İşləri Başqanlığının sabiq rəhbəri və Türkiyə Diyanət Vəqfi 29 Mayıs Universiteti İdarə Heyətinin sədri Təyyar Altıkulac ilə Mənəvi Dəyərlərin Təbliği Fondunda görüş keçirilib. Görüşdə Türkiyənin ölkəmizdəki səfirliyinin din işləri üzrə müşaviri Kamil Günəş, Türkiyə Diyanət Liseyinin direktoru Qədir Bekdaşoğlu və Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev iştirak ediblər.

* * *

Sentyabrın 21-də Qusarda "Mənəvi dəyərlərimiz Azərbaycançılıq ideologiyasının tərkib hissəsidir" mövzusunda tədbir keçirilib. Fondun icraçı direktoru M.İsmayılov, DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, Qusar RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Ceyhun Hacıyev, ilahiyyatçı-ekspert Vüqar Hümmətov, eləcə də dindarlar, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.



* * *

Sentyabrın 25-də Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı və Masallı Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Masallı rayonunda "Mənəvi dəyərlərimiz - dünən, bu gün, sabah" mövzusunda seminar-treninq keçirilib. Fondun icraçı direktorunun müavini C.Əliyev, DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryəhya Bədirov, Masallı RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Ceyhun Başirov, tarixçi-ekspert Azad Nəhmədov, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

* * *

Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən sentyabr ayı ərzində "Şəhidlik - mənəvi dəyər kimi" mövzusunda seminar-treninqlər təşkil olunub. Bakının Suraxanı rayonu və Naradaran qəsəbəsində, habelə Gəncə, Lənkəran, Masallıda keçirilən tədbirlərdə Fondun rəhbərliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, şəhər və rayon icra hakimiyyətlərinin əməkdaşları, QMİ-nin bölgələr üzrə səlahiyyətli nümayəndələri, dini icma sədrləri, din xadimləri, dindarlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

# QISA-QISA

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlərdə ölkəmizdəki multikultural və tolerant mühit, həmçinin dini fanatizmə, xurafata, radikalizmə qarşı mübarizənin mahiyyəti haqqında çıxışlar edilir, dövlət-din münasibətlərinin hüquqi bazası barədə məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə sahəsində fəallığının daha da artırılması məqsədilə müzakirələr aparılır. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən tədbirlər DQİDK-nın təşkilatçılığı ilə, eyni zamanda Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**3 sentyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayonu Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində;



**4 sentyabr** - DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Laçın Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Taxta Körpü qəsəbəsində "Sülh aylığı" çərçivəsində; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay RİH-in birgə təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Daxili Qoşunların Zaqatala rayonunda yerləşən "N" saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə "Radikal dini cərəyanların təbliğatında əsas metod və vasitələr" mövzusunda;



**5 sentyabr** - DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Ağstafa RİH-in birgə təşkilatçılığı ilə "Sülh aylığı: multikultural cəmiyyətdə dini tolerantlığın önəmi" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində Kotec qəsəbəsi "İmam Sadiq" məscidində; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı RİH və İsmayıllı Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm: insan hüquq və azadlıqlarına təhlükə kimi" mövzusunda; Qobustan RİH və DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Qobustan şəhəri 2 saylı tam orta məktəbdə "İslam sülh və əmin-amanlıq dinidir" mövzusunda; Qax RİH və DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə C.Cabbarlı adına mərkəzi kitabxanada "Sülh aylığı: multikultural cəmiyyətdə dini tolerantlığın önəmi" mövzusunda; Gədəbəy RİH və DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə "İslam sülh və əmin-amanlıq dinidir" mövzusunda; Ağdam RİH və DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Yeni İmamqulubəyli qəsəbəsi 135 saylı məktəbdə



"Dini radikalizm: insan hüquq və azadlıqlarına təhlükə kimi" mövzusunda;

**7 sentyabr** - DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sabirabad şəhər "Heydər" məscidi dini icmasında "Sülh aylığı" çərçivəsində; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin və Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin Quba regional mərkəzinin birgə təşkilatçılığı ilə Xaçmaz rayonu Qobuqırağı kənd məscidində "İslam dinində sülhün mahiyyəti" mövzusunda; İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzi, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Zövlə kənd tam orta məktəbində "Sülh inkişafın əsas təməlidir" mövzusunda;

**8 sentyabr** - DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon İcra Hakimiyyəti və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə Nizami Gəncəvi adına Mədəniyyət Mərkəzində Məhərrəmlik mərasimlərinin təşkili və Aşura günü qarşıda duran vəzifələr mövzusunda;

**9 sentyabr** - DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran Şəhər İcra Hakimiyyəti və Qafqaz




Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə şəhər "Cümə" məscidində Məhərrəmlik mərasimlərinin təşkili və Aşura günü qarşıda duran vəzifələr mövzusunda;

**11 sentyabr** - Suraxanı Rayon İcra Hakimiyyəti və DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Məhərrəm ayı ilə əlaqədar Zığ qəsəbəsi 317 saylı tam orta məktəbdə;

**12 sentyabr** - DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Qaradağ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "İslam dəyərləri" mövzusunda; DQİDK-nın Lənkəran bölgə şöbəsinin və Lerik Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun idarə, təşkilat və müəssisə rəhbərlərinin, hüquq-mühafizə orqanlarının, dini icma sədrləri və din xadimlərinin iştirakı ilə Məhərrəmlik




mərasimləri ilə əlaqədar;

**13 sentyabr** – DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Suraxanı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Yeni Suraxanı qəsəbəsində yerləşən 89 saylı tam orta məktəbdə Məhərrəmlik mərasimlərinin təşkili və Aşura günü qarşıda duran vəzifələr mövzusunda; DQİDK və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə Xəzər rayon Gənclər evində "Dini radikalizmlə mübarizədə İslam həmrəyliyinin rolu" mövzusunda;

**14 sentyabr** - DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə İmişli rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında "Sülh və sabitlik inkişafın əsas təməlidir" mövusunda;

**17 sentyabr** –DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar Lənkəran rayonu Cil kənd tam orta məktəbində "Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin siyasi



və mənəvi varisidir" mövzusunda;

**18 sentyabr** – Zaqatala Rayon İcra Hakimiyyəti və DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Zaqatala şəhər Akademik Zərifə Əliyeva adına liseydə "Milli-mənəvi dəyərlər bizim sərvətimizdir" mövzusunda; Mingəçevir şəhəri "İqtisadi və Sosial Maarifləndirmə Mərkəzi" İctimai Birliyi və DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Mingəçevir Gənclər Evində "Dini radikalizm millətimizə və İslam dininə yaddır" mövzusunda;

**26 sentyabr** - DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Rəhim Tağıyev adına Masallı rayon Tarix-diyarşünaslıq muzeyinin birgə təşkilatçılığı ilə "Şəhidlik-ölməzliyə gedən yol" mövzusunda keçirilib.

Tədbirlərdə Məhərrəm ayı ilə bağlı tövsiyələr verilib, dini radikalizm, ekstremizm, teror kimi məsələlərə toxunulub, natiqlər gənclərin bu yollardan uzaq durmalı olduqlarını vurğulayıblar. Həmçinin dini radikalizmi yaradan səbəblərdən, onun müasir dövrdəki təzahürlərindən söz açılıb. Vurğulanıb ki, bu mövzuda cəmiyyətlə aparılan ictimai müzakirələr radikalizm və terrorizmə qarşı mübarizədə öz müsbət təsirini göstərir. Çıxışçılar bu cür tədbirlərin Azərbaycan gəncliyinin öz qədim tarixi irsinə, milli-mənəvi dəyərlərinə sadiq qalmalarına, vətənə məhəbbət, torpağa sədaqət ruhunda tərbiyə olunmalarına kömək etdiyini deyiblər. Bildirilib ki, gənclərimizin düzgün istiqamətləndirilməsində, onların sağlam düşüncəli vətəndaş kimi yetişməsində dini icma-



ların və din xadimlərinin üzərinə böyük məsuliyyət düşür.

Tədbirlərdə müqəddəs Ramazan ayının başlanması ilə bağlı verilən fətva, bu ay ərzində keçiriləcək tədbirlər barədə də söhbət açılıb. Bildirilib ki, din xadimləri Ramazan ayı boyu QMİ-nin xüsusi təqviminə riayət etməli, müvafiq orqanlarla mütəmadi fikir mübadiləsi aparmalıdırlar.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ DİNDARLARIN SOSİAL MÜDAFİƏSİNİN TƏŞKİLİ

Şərqin ilk parlamentli respublikası – Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövlətçilik tariximizin ən parlaq səhifələrindəndir. AXC-nin fəaliyyətini araşdırarkən xüsusi diqqət çəkən sahələrdən biri sosial-siyasi idarəetmədir. Qəbul olunan qanunlar və həyata keçirilən konkret tədbirlər bunu deməyə əsas verir.

Sosial siyasətinin əsasında milli gəlirin və məşğulluq səviyyəsinin artırılması, əmək şəraitinin yaxşılaşdırılması, təhsil, səhiyyə, mənzil və kommunal təminatı səviyyəsinin yüksəldilməsi duran AXC rəhbərliyi mürəkkəb beynəlxalq və daxili vəziyyətdən doğan bir çox problemlər ilə üz-üzə idi. Mövcud iqtisadi çətinliklər, keçmiş İrəvan quberniyasında və digər yerlərdə ermənilərin törətdiyi soyqırımına məruz qalan 150 mindən çox azərbaycanlının məcburi köçü, əhalinin əksəriyyətini təşkil edən kəndlilərin torpaq məsələsinin həll olunmaması və s. sosial vəziyyəti xeyli çətinləşdirirdi. Belə ağır şəraitdə AXC parlamenti və hökuməti sosial gərginliyi aradan qaldırmaq məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirdi.

Təsadüfi deyil ki, Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə parlamentin müzakirəsinə müxtəlif sahələrə aid 315 qanun layihəsi təqdim olunmuşdur. Onlardan 10-u sosial sahəni əhatə etmişdir. Milliyyətindən asılı olmayaraq, sosial vəziyyəti ağır olan hər kəsə yardım göstərilmişdir. Məsələn, 1919-cu ildə Bakı Müsəlman qadın xeyriyyə cəmiyyəti ilə yanaşı, rus və yəhudi xeyriyyə cəmiyyətlərinə, erməni və yəhudi milli şuralarına, o cümlədən digər cəmiyyətlərə uşaqların, qocaların və digər əhali qruplarının vəziyyətinin yaxşılaşdırılması üçün xeyli vəsait ayrılmış, 1920-ci ilin fevralında Gürcüstanda baş verən zəlzələ nəticəsində ziyan çəkmiş əhaliyə yardım edilmişdir.

Müstəqilliyinin ilk günlərindən başlayaraq AXC-nin sosial sahəyə göstərdiyi diqqət və qayğıdan ölkənin dini kəsimi də kənarda qalmamışdır. Dövlətin dindarların sosial müdafiəsi üçün gördüyü tədbirlər təkcə müsəlmanları deyil, digər dinlərin nümayəndələrini də əhatə etmişdir. Belə ki, Rus pravoslav kilsəsi, molokan baptist dini cəmiyyətləri, katolik kilsələri, yəhudi ravvinliyi, hətta erməni yepiskopluğuna da hökumət tərəfindən yardımlar ayrılmış və onların fəaliyyəti üçün münasib şərait yaradılmışdır.

Bu dövrdə dövlət-din münasibətlərinin tənzimlənməsində milli və etnik azlıqların da dini etiqad məsələləri daim diqqətdə saxlanılmışdır. 1920-ci il fevral ayının 5-də Təzəpir məscidində 280 dindarın iştirakı ilə Dağıstan məscidi üzvlərinin ümumi yığıncağı keçirilmiş və məscidin tikilməsi üçün komitə yaradılmışdır. Hökumət həmin məscidin tikintisinə yardım göstərməklə Azərbaycan vətəndaşı olmayan dindarların da dini ehtiyaclarının ödənilməsi qayğısına qalmışdır.

Cümhuriyyət dövründə "Məşixəti-İslamiyyə" idarəsinin yaradılması xüsusi qeyd olunmalıdır. Çünki dini sahədəki problemlərin tənzimlənməsində digər qurumlarla yanaşı, bu idarə də böyük rol oynamışdır.

AXC dövründə 5 hökumət kabineti fəaliyyət göstərmiş, lakin bu kabinetlərin heç birində dini işlər üzrə müstəqil nazirlik olmamışdır. Dini işlərə dövlət nəzarəti 1-ci hökumət kabinetində yaranmış Maliyyə və Xalq Maarifi Nazirliyi tərəfindən həyata keçirilsə də, ikinci hökümətdə dini etiqadın tənzimlənməsi və idarə olunması işi yeni yaranmış, Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi Sosial Təminat və Dini Nazirliyə həvalə edilmişdir. İlk təhsilini Gəncənin "Şah Abbas" məscidinin nəzdində fəaliyyət göstərən mədrəsədə alan Musa bəy Rəfiyev isə bu sahə üzrə nazir təyin olunmuşdur. Daha sonra Maarif Nazirliyi ilə birləşdiriləræk Maarif və Dini Etiqad Nazirliyi adlandırılmış, nazirliyə üçüncü hökumət kabinetində Nəsib bəy Yusifbəyli, dördüncü hökumət kabinetində isə Rəşid xan Qaplanov rəhbərlik etmişdir. Sonrakı dönəmlərdə isə Həmid bəy Şaxtaxtinski və Nurməmməd bəy Şahsuvarov maarif və dini etiqad naziri təyin olunmuşlar.




Maarif və Dini Etiqad Nazirliyi əhalinin dini ehtiyaclarını təmin etmək məqsədilə müəyyən işlər görmüşdür. Qısa zamanda bütün konfessiyalardan olan dindarlarla sıx əlaqə yaradılmış və hüquq müstəvisində onlarla əməkdaşlığa başlanmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətlərinin nizama salınması baxımından bu sahəyə rəhbərlik etmiş nazirlərlə yanaşı, şeyxülislam Məhəmmədəli Pişnamazzadə, Ağa Əlizadə və müfti Mustafa Əfəndizadənin də fəaliyyətləri qeyd olunmalıdır. Cümhuriyyət qurulana qədər Qafqaz müsəlmanlarının dini işləri iki idarə - şiə və sünni idarələri tərəfindən tənzimlənmişdir. AXC-nin dini sahədə apardığı məqsədyönlü işlərin ilk nəticələrindən biri Qafqazda müsəlmanların vahid ruhani idarəsinin yaradılması olmuşdur. Bununla dini sahədəki sistemsizlik qismən aradan qaldırılmış, şeyxülislamın və müftinin fəaliyyətinə diqqət artırılmışdır. Hökumətin 1918-ci il 18 iyun tarixli qərarı ilə Nazirlər Şurasında dinlə bağlı məsələlərin müzakirələrində şeyxülislama və müftiyə həlledici səs hüququ verilmişdir. 1918-ci il 8 oktyabr tarixli qərar ilə isə şeyxülislam və müftinin əməkhaqları 2500 manat müəyyənləşdirilsə də, sonralar bu rəqəm xeyli artırılmışdır.

İlk dövrlər şeyxülislam vəzifəsini Məhəmməd Pişnamazzadə icra etmiş, 1918-ci ilin sonunda onu axund Ağa Əlizadə əvəzləmişdir. Müfti vəzifəsini isə Mustafa Əfəndizadə yerinə yetirmişdir. "Məşixət"in digər üzvləri isə Hacı Məhəmməd Cəfər Axundzadə, Əbdülxaliq Əfəndizadə, Hacı Şeyx Həsən Sadiqzadə, Ələddin Əfəndi Sübhankulov və başqaları olmuşlar. "Məşixət"in mərkəzi aparatında ilk vaxtlar 16-sı şiə, 15-i isə sünni məzhəbinə mənsub olan 31 nəfər çalışmışdır.

Din xadimlərinin sosial durumu da dövlətin diqqətindən yayınmamışdır. Belə ki, bu sahədə çalışanlara dövlət müəyyən vəsaitlər ödəmişdir. Hökumət şeyxxülislama və müftiyə həyat şəraitləri yaxşılaşana qədər 3000 manat məvacib təyin etmişdir ki, bunun 2000 manatı maaş, 700 manatı ərzaq, 150 manatı ev kirayəsi və 150 manatı da işıq pulu üçün nəzərdə tutulmuşdur.

Statistik rəqəmlərə görə, Cümhuriyyətin ilk dövrlərində "Məşixət" idarəsinə ayrılan vəsait sonralar 8 dəfəyə qədər artırılmışdır. Bəhs olunan dövrdə dindarlar respublikada mövcud olan vəqf mülklərindən toplanan ianə vəsaitlərindən də bəhrələnmişlər. Bütün bunlara baxmayaraq, ölkə dindarlarının sosial təminatı müxtəlif səbəblərdən kifayət qədər yaxşı təşkil olunmamışdır. Ona görə də Maarif və Dini Etiqad Nazirliyi onların güzəranının yaxşılaşdırılması üçün bir neçə dəfə Ərzaq Nazirliyinə müraciət etmişdir.

Yuxarıda qeyd olunanlar bir daha göstərir ki, Cümhuriyyət dövründə başqa sahələrlə yanaşı, dövlətdin münasibətlərinin tənzimlənməsi, subardinasiyalı idarəçilik sisteminin yaradılması və onun maddi-texniki bazasının formalaşdırılması, dindarların sosial vəziyyətinin yaxşılaşdırılması, dini təsisatlara hörmət və qayğı ilə yanaşılması, dini təhsil, ədəbiyyat və mətbuatın inkişafı istiqamətində tutarlı işlər görülmüşdür.

Maarif və Dini Etiqad Nazirliyi və "Məşixət" əsasən ölkədəki qaçqın məsələsi ilə məşğul olan Xalq Səhiyyə və Himayədarlıq Nazirliyi ilə də əlaqəli fəaliyyət göstərmişdir. Bu qurumların əsasnamələrində göstərilən yetim, kimsəsiz və azyaşlı uşaqların saxlanılması üçün uşaq evləri və düşərgələr təşkil etmək, zəruri qida mənbələri və ucuz qiymətlərə yeməkxanalar açmaq, fərdi və ictimai xeyriyyəçilik işlərinə nəzarət etmək kimi xeyirxah işlərdə ölkə dindarları da fərqlənmişlər.

AXC dövründə cəmiyyət həyatının bütün sahələrində dindarlar yaxından fəaliyyət göstərmişlər. Gündəlik dini ayin və mərasimlərin icrası ilə yanaşı, dindarlar milli azadlıq hərəkatında, azərbaycanlıların erməni vəhşiliklərindən qorunmasında, milli-mənəvi dəyərlərin mühafizəsində, milli partiya və cəmiyyətlərin xeyriyyəçilik işlərinin aparılmasında, nəşriyyat işinin təşkilində yaxından iştirak etmişlər.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə dindarların sosial müdafiəsi ilə yanaşı, onların dini cəhətdən maarifləndirilməsi də qarşıda duran əsas vəzifələrdən biri idi. Buna görə də həmin dövrdə dünyəvi ədəbiyyatla yanaşı, dini məzmunlu kitabların nəşrinə də dövlət tərəfindən qayğı və maddi dəstək göstərilirdi.

**Əlizadə NƏCƏFOV,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru*

## İŞİD təhlükəsi indi də Mərkəzi Asiyada

İŞİD terror təşkilatı Mərkəzi Asiyada xilafət yaratmağı planlaşdırır və bunun üçün yatmış hücrələrin aktivləşdirilməsinə başlayıb.

Bu fikirləri MDB-nin Antiterror Mərkəzinin sədri Adrey Novikov deyib. Onun sözlərinə görə, İŞİD-in planları uzunmüddətli xarakter daşıyır və təkcə Qırğızıstanı deyil, bütün Mərkəzi Asiya regionunu təhdid edir.

Qırğızıstan baş nazirinin müavini Jeniş Razakov əlavə edib ki, Əfqanıstandan gələn terror təhlükəsi güclənir, çünki terrorçular Mərkəzi Asiya ölkələrinə keçirlər. "Ən narahatedici fakt ondan ibarətdir ki, terrorçular Əfqanıstanın şimalından Mərkəzi Asiyaya keçmək cəhdlərindən əl çəkmirlər", - deyə Razakov bildirib.

## Türkiyə ABŞ sanksiyalarına əməl etmək niyyətində deyil



Ankara ABŞ-ın İrana qarşı sanksiyalarını dəstəkləmir və bu ölkə ilə ticarət əlaqələrini davam etdirmək niyyətindədir.

Bu fikirləri "RİA Novosti"yə açıqlamasında Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.

"Biz İran, Rusiya və digər ölkələrlə ticarət əlaqələrimizi davam etdirəcəyik. Türkiyə suveren və müstəqil dövlətdir. Əgər bu, BMT-nin sanksiyalarıdırsa, biz qoşulacağıq, əks halda bunlara əməl etməyəcəyik", - o qeyd edib.

Sentyabrın 26-da ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton vəd edib ki, ABŞ heç bir ölkənin İrana qarşı sanksiyalardan yan keçməsinə imkan verməyəcək, Vaşinqton isə Tehrana qarşı iqtisadi təzyiqlərində amansız olacaq.

# CƏMİYYƏT və DİN

№ 09 (326) / SENTYABR 2018-ci il


# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## Dəyişiklik

**Masallı rayonu Boradigah qəsəbə məscidi dini icması**
**Qeydiyyat tarixi:** 11 dekabr 2009-cu il
**Qeydiyyat №-si:** 100109A2 – 86

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həsənov Eynulla Rüstəm oğlu, Mənsimov Məmmədhüseyn Əlimərdan oğlu, Kazımov Etibar Səfər oğlu, Talıbov Akif İsa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar və İsmayılzadə Şahsuvar Akif oğlu, Zülfüqarov Elmin Aqil oğlu, Kərimov Cabir Əli oğlu, Xanışzadə İlkin Aktiv oğlu, Zamanov Sahib Əlicəfər oğlu, Hüseynov Rəşad Hüseynağa oğlu, Ağaliyev Namiq Əliheydər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 sentyabr 2018-ci il

**Saatlı rayonu Çolpı kəndi "İmam Əli" məscidi dini icması**
**Qeydiyyat tarixi:** 22 dekabr 2017-ci il
**Qeydiyyat №-si:** 100117C – 770

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qasımov Səfəralı Səfəralı oğlu dini icmasının təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Dəyişikliklərin qeydiyyat tarixi:18 sentyabr 2018-ci il

**Hacıqabul rayonu Talış kənd məscidi dini icması**
**Qeydiyyat tarixi:** 09 dekabr 2009-cu il
**Qeydiyyat №-si:** 100109A2 – 72

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Muxtarov Seidəli Mirdamət oğlu, Muxtarov Mirəli Mirdamət oğlu, Muxtarov Seyidəzim Mirdamət oğlu, Muxtarov Mirmehdi Mirdamət oğlu, Şahgəldiyev Elnur Eldar oğlu, Şahgəldiyev Eldar Əli oğlu, Səfərli Elçin Həsən oğlu, Məmmədov İslam Məmməd oğlu, Məmmədov Seyidxan Məmməd oğlu, Quliyev Qurban Məmət oğlu, Qəhrəmanov Faiq Qurbət oğlu, Əsgərov Fərhad Qaraş oğlu, Hüseynov Çingiz Xələf oğlu, Muxtarov Sadıq Mirbağır oğlu, Əjdərov Kamal Xeyrulla oğlu, Abbasov Akif Poladxan oğlu, Hüseynov Pərviz Allahyar oğlu, Əliyev Faiq Qurban oğlu, Cəfərov Əbil Musa oğlu, Allahverdiyev Vəliəddin Allahverdi oğlu, Allahverdiyev Oktay Vəliyəddin oğlu, Səfərov Ramin Yadigar oğlu, Səfərov Şahin Yadigar oğlu, Həsənov Əmrah Təbriz oğlu, Cumayev Emin Ağaismayıl oğlu, Ağayev Sübhi Namaz oğlu, Ağayev Fəqani Xalıq oğlu, Ağayev İsgəndər Xalıq oğlu, Nəzərov Mirzağa Yavər oğlu, Cəfərov Elvin Zabir oğlu, Məmişov Kamal Xudaverdi oğlu, Nuriyev Əzizağa Əlman oğlu, Nəzərov Səbirağa Həsənağa oğlu, Nəzərov Səyavuş Həsənağa oğlu, Hüseynov İslam Qulam oğlu, Məmmədov Mirxas Mirağa oğlu, Məmmədov Mirsəid Mirağa oğlu, Məmmədov Mircəfər Məmməd oğlu, Muxtarov Mirvaleh Mirelyas oğlu, Muxtarov Mirxalid Mirvaleh oğlu dini icmasının təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi:18 sentyabr 2018-ci il

**Zərdab rayonu Məmmədqasımlı kənd məscidi dini icması**
**Qeydiyyat tarixi:** 24 iyun 2010-cu il
**Qeydiyyat №-si:** 100110A3 – 423

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İsgəndərov İsgəndər İlyas oğlu, Cəfərov Səfər Cəfər oğlu, Azayev Cəbrayıl İsmayıl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar və Eyvazov Bahadur Hümmət oğlu, Həşimov Cabir Şəmi oğlu, Sadıqov Sadıq Əlbala oğlu, Zayıdov Rəhman Məhəmməd oğlu, Eyvazov Eyvaz Xəmməd oğlu, Cəfərov Möhsüm Səfər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

İsgəndərov İsgəndər İlyas oğlu dini icmasının sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Sadıqov Sadıq Əlbala oğlu dini icmasının sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 21 sentyabr 2018-ci il

### Yadigar söz

*Rabindranat Taqor,*
*Yazıçı, şair*

**Bütün ölkələr üçün vahid universitet modeli ola bilməz. Hər bir universitet öz ölkəsinin ictimai həyatının üzvi hissəsi kimi formalaşmalıdır.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (Oktyabr - 2018)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:16 | 06:36 | 12:30 | 16:38 | 18:38 | 19:38 |
| 2 | 05:17 | 06:37 | 12:30 | 16:37 | 18:36 | 19:37 |
| 3 | 05:18 | 06:38 | 12:29 | 16:35 | 18:34 | 19:35 |
| 4 | 05:19 | 06:39 | 12:29 | 16:34 | 18:33 | 19:33 |
| 5 | 05:20 | 06:40 | 12:29 | 16:32 | 18:31 | 19:32 |
| 6 | 05:21 | 06:41 | 12:29 | 16:31 | 18:30 | 19:30 |
| 7 | 05:22 | 06:42 | 12:28 | 16:30 | 18:28 | 19:28 |
| 8 | 05:23 | 06:43 | 12:28 | 16:28 | 18:26 | 19:27 |
| 9 | 05:25 | 06:44 | 12:28 | 16:27 | 18:25 | 19:25 |
| 10 | 05:26 | 06:45 | 12:27 | 16:25 | 18:23 | 19:24 |
| 11 | 05:27 | 06:47 | 12:27 | 16:24 | 18:22 | 19:22 |
| 12 | 05:28 | 06:48 | 12:27 | 16:23 | 18:20 | 19:21 |
| 13 | 05:29 | 06:49 | 12:27 | 16:21 | 18:19 | 19:19 |
| 14 | 05:30 | 06:50 | 12:26 | 16:20 | 18:17 | 19:18 |
| 15 | 05:31 | 06:51 | 12:26 | 16:18 | 18:16 | 19:16 |
| 16 | 05:32 | 06:52 | 12:26 | 16:17 | 18:14 | 19:15 |
| 17 | 05:33 | 06:53 | 12:26 | 16:16 | 18:13 | 19:13 |
| 18 | 05:34 | 06:54 | 12:26 | 16:14 | 18:11 | 19:12 |
| 19 | 05:35 | 06:55 | 12:25 | 16:13 | 18:10 | 19:10 |
| 20 | 05:36 | 06:56 | 12:25 | 16:12 | 18:08 | 19:09 |
| 21 | 05:37 | 06:57 | 12:25 | 16:10 | 18:07 | 19:08 |
| 22 | 05:38 | 06:58 | 12:25 | 16:09 | 18:06 | 19:06 |
| 23 | 05:39 | 06:59 | 12:25 | 16:08 | 18:04 | 19:05 |
| 24 | 05:40 | 07:01 | 12:25 | 16:06 | 18:03 | 19:04 |
| 25 | 05:41 | 07:02 | 12:24 | 16:05 | 18:02 | 19:03 |
| 26 | 05:42 | 07:03 | 12:24 | 16:04 | 18:00 | 19:01 |
| 27 | 05:43 | 07:04 | 12:24 | 16:03 | 17:59 | 19:00 |
| 28 | 05:44 | 07:05 | 12:24 | 16:01 | 17:58 | 18:59 |
| 29 | 05:45 | 07:06 | 12:24 | 16:00 | 17:56 | 18:58 |
| 30 | 05:46 | 07:07 | 12:24 | 15:59 | 17:55 | 18:57 |
| 31 | 05:47 | 07:08 | 12:24 | 15:58 | 17:54 | 18:55 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

* *Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# Dünyanın ilk ağıllı robotu Azərbaycanın milli geyimində

26-30 oktyabr tarixlərində Azərbaycanda ilk dəfə olaraq beynəlxalq "İnnovasiyalar həftəsi" keçiriləcək.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən verilən məlumata görə, "İnnovasiyalar həftəsi"nin ən maraqlı tədbirlərindən biri isə "Qlobal İnfluenser Günü" (Global İnfluencer Day) olacaq. "Keepface" platformasının rəhbəri Emin Vəli bildirib ki, tədbir çərçivəsində ən uğurlu süni intellekt nümunəsi, ilk vətəndaş robot "Sofiya" Azərbaycana gələcək. "Sofiya" indiyədək 40 ölkəyə səfər edib.

"Ağıllı robot insana məxsus 60 təəssüratı (gülmək, yuxulamaq, təəssüflənmək, xoşbəxt olmaq, qorxmaq, təəccüblənmək və s.) ifadə etmək bacarığına sahibdir. İngilis və rus dilində sərbəst danışa, ünvanlanmış sualları məntiqə uyğun olaraq cavablaya bilir. Hətta onun öz şəxsi kredit kartı da mövcuddur. Ölkəmizə səfəri çərçivəsində "Sofiya"nı Heydər Əliyev Mərkəzinin səhnəsində Azərbaycan milli geyimində izləmək mümkün olacaq.

"Qlobal İnfluenser Günü" çərçivəsində qeyd edildiyi kimi, müxtəlif ölkələrdən 1 milyondan çox izləyicisi olan "influenser"lər qatılacaq. Həmin şəxslərin sosial şəbəkələrdə ümumilikdə 30 milyondan çox təqibçisi var. Biz bu böyük rəqəmdən yararlanaraq "influenser"lər üçün Bakının gəzməli-görməli yerləri, milli mətbəximizlə tanışlıq üçün kontent turu təşkil edəcəyik. Bu imkan verəcək ki, "İnnovasiyalar həftəsi" çərçivəsində qlobal arenada da Azərbaycan haqqında məlumatlar paylaşılsın".




**Baş redaktor**
**Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
**Telefon:** 492 65 23; 437 31 15
**Tel/fax:** 497 15 39
492 58 29; 437 31 15
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894